# ON BİR AYLIQ SINAĞIN İLK İKİ HƏFTƏSİ

Metroda xətlərin ayrılmasından sonra ilk günlərin mənzərəsi sərnişin axınında ciddi dəyişiklik olduğunu göstərir.

Metronun "28 May"-"Nizami" sahəsində qatarların hərəkətinin dayandırılmasından 10 gündən çox vaxt keçir. Bu müddət ərzində sərnişin daşınmasını təmin etmək məqsədilə yeni ekspres avtobus marşrutları fəaliyyətə başlayıb, bir sıra mövcud xətlər isə gücləndirilib. Bəs sərnişinlərin yeni sxemə uyğunlaşma prosesi necə gedir və hazırda sistemdə hansı boşluqlar müşahidə olunur?

SƏHİFƏ 12-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

29 AVQUST ŞƏNBƏ 2026 № 32 (4283) Qiyməti - 60 qəpik www.kaspi.az






## ŞÜKÜRBƏYLİ KƏNDİNƏ NÖVBƏTİ KÖÇ

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər göstərilən qayğıya, yaradılan müasir yaşayış şəraitinə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

SƏHİFƏ 2-də



## 12 MİLYARDLIQ HƏDƏF REALDIRMI?

Təsdiqlənən yeni Dövlət Proqramında turizm sektorunun yaratdığı əlavə dəyərin 12,2 milyard manata çatdırılması hədəflənir. Bununla turizmin qeyri-neft-qaz iqtisadiyyatındakı payının artırılması nəzərdə tutulur.

SƏHİFƏ 4-də



## POLİKLİNİKALAR BİRLƏŞDİRİLİR, NARAHATLIQ ARTIR

Səhiyyədə daha bir yeniliyə hazırlıq gedir. Paytaxtda fəaliyyət göstərən poliklinikaların birləşdirilməsi nəzərdə tutulur. Dövlət tibb müəssisələrində onsuz da pasiyent sıxlığının yüksək olduğu bir vaxtda atılacaq bu addım suallar doğurur.

SƏHİFƏ 11-də

### ƏLAQƏLƏRDƏKİ DİNAMİK İNKİŞAFIN NÖVBƏTİ MÜHÜM MƏRHƏLƏSİ

# STRATEJİ MÜTTƏFİQLİKDƏN ƏBƏDİ DOSTLUĞA



Prezident İlham Əliyevin Özbəkistana son səfəri göstərdi ki, iki ölkə arasında strateji müttəfiqlik, qarşılıqlı əlaqələr yeni müstəviyə qədəm qoyub. Bu münasibətlər hər iki ölkənin, o cümlədən bütövlükdə türk dünyasının hədəflərinə çatmasında önəmli rola malikdir.

**TRANZİT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ**

Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın strateji istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsidir. Tərəflər Trans-Xəzər dəhlizinin potensialını birlikdə inkişaf etdirməyi, logistika infrastrukturunun səmərəliliyini artırmağı hədəfləyirlər.

**BİR MİLYARD DOLLARLIQ HƏDƏF**

Azərbaycan və Özbəkistan arasında ticari-iqtisadi əlaqələrin konkret hədəflərlə yeni mərhələsi başlayır. Ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması, energetika, nəqliyyat, investisiya, turizm, kənd təsərrüfatı və digər sahələrdə layihələrin həyata keçirilməsi planlaşdırılır.

SƏHİFƏ 3-də

"Yaşar Nuri aktyor sənətimizin tacı idi"



## YAŞASAYDI, 75 YAŞI OLACAQDI

Elə bil dünən idi: redaksiyamıza qonaq gəlmişdi. Ad günü ərəfəsi idi. Əlində gül dəstəsi, üzündə mehriban təbəssümü... Xalq artisti Yaşar Nuri həmin gün özünəməxsus zarafatından qalmadı, xatirələrini çözdü, suallarımızı cavablandırdı: "Nə vaxt çağırsanız, gələrəm", - deyib getdi... Sentyabrın 3-ü 75 illik yubileyidir Yaşar Nurinin. Onu sevənlər, həmkarları, dostları yubileyini onsuz qeyd edəcəklər.

SƏHİFƏ 15-də



## KOREYA YARIMADASINDA YENİ OYUN

ABŞ Prezidenti Tramp masaya qayıtmaq, Kim isə masaya oturmaq üçün şərtləri dəyişdirmək istəyir. Məhz bu ziddiyyət qarşıdakı aylarda ABŞ-Şimali Koreya diplomatiyasının əsas mübarizə xəttini təşkil edəcək.

SƏHİFƏ 5-də



## ERMƏNİSTANDA YENİ SİYASİ GƏRGİNLİK

Paşinyan revanşist qüvvələrə, böyük təsir imkanlarına malik oliqarxlara qarşı ciddi tədbirlər görməyə başlayıb. Bu tədbirlərin Rusiyanın Ermənistan daxilindəki mövqelərinin zəifləməsinə hesablandığı aşkardır.

SƏHİFƏ 6-da



## TOY SEKTORU ALTERNATİV AXTARIŞINDA

Son vaxtlar toyların sayında müşahidə olunan kəskin azalma toy sənayesini yeni reallıqlarla üz-üzə qoyub. Hazırda şadlıq sarayları, musiqiçilər, gəlinlik salonları, fotoqraflar maliyyə böhranı ilə üz-üzədirlər.

SƏHİFƏ 8-9-da



Hava limanında "elektron qapı"

SƏHİFƏ 2-də



Kredit portfelində qırmızı işıq

SƏHİFƏ 7-də



Hər addım təhlükə, hər mərtəbə risk

SƏHİFƏ 13-də



Autizmli uşaqların sayı niyə artır?

SƏHİFƏ 14-də



"Sabah" "Barselona"nı Bakıya gətirir

SƏHİFƏ 16-da



# Hava limanında “elektron qapı”

Heydər Əliyev Beynəlxalq Hava Limanında “Elektron qapı sərhəd nəzarəti sistemi” (avtomatlaşdırılmış pasport nəzarəti və biometrik identifikasiya sistemi) istifadəyə verilib. Müasir texnoloji həllər əsasında fəaliyyət göstərən innovativ sistem Azərbaycan Respublikasının 18 yaşı tamam olmuş vətəndaşlarının sərhəd nəzarətindən daha sürətli və rahat şəkildə keçməsinə imkan yaradır.

Elektron qapı vasitəsilə sərhəd nəzarəti prosesi əsas mərhələlər üzrə avtomatlaşdırılmış qaydada həyata keçirilir. Sərnişin şəxsiyyət sənədini müvafiq oxutma qurğusuna təqdim etdikdən sonra sənəddəki məlumatlar sistem tərəfindən avtomatik oxunur, aidiyyəti informasiya sistemləri üzrə zəruri yoxlamalar aparılır və biometrik məlumatlar əsasında şəxsin eyniləşdirilməsi həyata keçirilir.

Bütün məlumatların uyğunluğu təsdiq edildikdə elektron qapı avtomatik açılır və sərnişinin sərhəd nəzarətindən keçidi tamamlanır. Sözügedən proses elektron qapı vasitəsilə təxminən 20 saniyə ərzində həyata keçirilir. Sistemin tətbiqi sərhəd nəzarətinin əsas mərhələlərinin avtomatlaşdırılmasına, sərnişinlərin sərhədkeçmə məntəqələrində gözləmə müddətinin azaldılmasına, nəzarət prosedurlarının çevikliyinin və səmərəliliyinin yüksəldilməsinə, eləcə də insan amilinin minimuma endirilməsinə şərait yaradır. “Elektron qapı sərhəd nəzarəti sistemi” ilkin mərhələdə Heydər Əliyev Beynəlxalq Hava Limanının ölkəyə gəlmə zalında istifadəyə verilib.

Növbəti mərhələdə sistemin digər dövlət sərhədindən buraxılış məntəqələrində də tətbiqi nəzərdə tutulur. Hazırda sistemin imkanlarının genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində müvafiq işlər davam etdirilir.

Yeni texnologiyanın tətbiqində əsas məqsəd yalnız sərnişinlərin sərhəd nəzarətindən daha sürətli keçirilməsini təmin etmək deyil, eyni zamanda sərnişin məmnuniyyətinin artırılması, sərhəd nəzarətində rəqəmsal texnologiyaların tətbiq dairəsinin genişləndirilməsi və müasir tələblərə cavab verən effektiv nəzarət mexanizmlərinin formalaşdırılmasıdır.

# ŞÜKÜRBƏYLİYƏ NÖVBƏTİ KÖÇ

**Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir. Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Şükürbəyli kəndinə 15 ailə olmaqla 86 nəfər köçürülüb.










### AİLƏLƏRƏ EVLƏRİNİN AÇARLARI TƏQDİM OLUNUB

Şükürbəyli kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

## Dövlət başçısına minnətdardırlar

Beləliklə, uzun illər həsrətlə doğma yurda qayıdışı gözləyən insanlar üçün Şükürbəylidə yeni həyat başlayıb. Burada həyata keçirilən quruculuq işləri “Böyük Qayıdış” proqramının uğurlu icrasının daha bir nümunəsidir. Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda, döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.



## Şükürbəyli kəndində bütün infrastruktur yaradılıb

Qeyd edək ki, Şükürbəyli kəndi yenidən qurulub və burada sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb.

Şükürbəyli kəndində hər biri 80 yerlik olmaqla iki körpələr evi-uşaq bağçası, 360 şagird yerlik məktəb binası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi, həmçinin yerli icra strukturları üçün inzibati bina tikilib. Bununla yanaşı, 35/10 kV-luq elektrik yarımstansiyası inşa olunub, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, internet və “İP TV” şəbəkələri yaradılıb, kənddaxili yollar asfaltlanıb. İlkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçün ayrılıb. Müasir üslubda inşa olunan evlər 2, 3, 4 və 5 otaqlıdır.



# STRATEJİ MÜTTƏFİQLİKDƏN ƏBƏDİ DOSTLUĞA

Prezident İlham Əliyevin Özbəkistana son səfəri göstərdi ki, iki ölkə arasında strateji müttəfiqlik, qarşılıqlı əlaqələr yeni müstəviyə qədəm qoyub. Bu münasibətlər hər iki ölkənin, o cümlədən bütövlükdə türk dünyasının hədəflərinə çatmasında önəmli rola malikdir.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri iki ölkə arasında qarşılıqlı münasibətlərdə son illərdə müşahidə olunan dinamik inkişafın növbəti mühüm mərhələsi kimi dəyərləndirilir. Bu səfər tək Bakı-Daşkənd əlaqələrinin dərinləşdirilməsini yox, həm də Azərbaycan-Mərkəzi Asiya vahid regionunun gələcək inkişaf perspektivlərinin reallığa çevrilməsini hədəfləyir.

### "BU, SADƏCƏ BİR SƏNƏD DEYİL"

Qeyd edək ki, Prezident İlham Əliyev səfər çərçivəsində özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə görüşüb. Daşkənddə Azərbaycan və Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclası keçirilib. Bir çox təməlatma mərasimləri və açılışlar reallaşıb. İkitərəfli münasibətlərə dair qarşılıqlı sənədlər imzalanıb. Həmçinin Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əbədi dostluq haqqında Müqavilə"ni imzalayıblar. Bu sənəd iki ölkə arasında münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini bir daha göstərir. Prezident Şavkat Mirziyoyev Əbədi dostluq haqqında Müqaviləni belə dəyərləndirib: "Bu gün biz Əbədi dostluq haqqında Müqavilə imzaladıq. Təsəvvür edirsinizmi, regionlar, biznes, hökumətlər və parlamentlərarası əlaqələr artıq nə qədər yüksək səviyyəyə çatıb. Bu, sadəcə bir sənəd deyil, qarşılıqlı əlaqələri dərinləşdirmək, əməkdaşlıq imkanlarını genişləndirmək və ümumi gələcək qurmaq istiqamətində birgə istəyimizin əksidir".

Azərbaycan və Özbəkistan arasında Əbədi dostluq haqqında Müqavilə ikitərəfli münasibətlərin, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə əlaqələrin daha da inkişaf etməsinə töhfə verəcək. Bu müqavilə artıq formalaşmış münasibətlərin - möhkəm dostluğun, sıx əlaqələrin və yüksək səviyyəli qarşılıqlı etimadın məntiqi davamı kimi dəyərləndirilir.

## Nəqliyyat və tranzit sahəsində əməkdaşlıq

Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın strateji istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsidir. Tərəflər Trans-Xəzər dəhlizinin potensialını birlikdə inkişaf etdirməyi, logistika infrastrukturunun səmərəliliyini artırmağı, daşımaları stimullaşdırmağı hədəfləyirlər. Bu məqsədlə Xəzər dənizində birgə donanmanın yaradılması da nəzərdə tutulur. Qeyd edək ki, Azərbaycan Mərkəzi Asiya üçün Qərbə açılan qapıdır. Ölkəmizin geosiyasi mövqeyi, iqtisadi və coğrafi imkanları, tranzit bağlantısı olması Orta Dəhlizin reallaşmasının ən mühüm həlqəsi sayılır. Özbəkistan üçün də Orta Dəhliz həyati əhəmiyyət daşıyan nəqliyyat arteriyasıdır. Ölkənin dəmir yollarının işinin Azərbaycanın nəqliyyat infrastrukturu ilə sinxronlaşdırılması Bakı Beynəlxalq Dəniz Limanının ötürmə qabiliyyətini genişləndirəcək və gələcəkdə "Çin-Qırğızıstan-Özbəkistan" dəmir yolu magistralı ilə yaranacaq vahid sistem iki ölkəni Avrasiyanın mərkəzi logistika qovşaqlarından birinə çevirəcək.

### BİR MİLYARD DOLLARLIQ HƏDƏF

Səfərin ən mühüm nəticələrindən biri Azərbaycan və Özbəkistan arasında ticari-iqtisadi əlaqələrin konkret hədəflərlə yeni mərhələyə keçirilməsidir. Belə ki, qarşılıqlı ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması, energetika, nəqliyyat, investisiya, turizm, dağ-mədən sənayesi, avtomobil sənayesi, kənd təsərrüfatı, emal, bankçılıq və digər sahələrdə layihələrin həyata keçirilməsi planlaşdırılır.

Səfər çərçivəsində Azərbaycandan Özbəkistana yönələn investisiyaların miqyasının genişləndiyi də diqqət çəkdi. "Davr Bank"ın açılışı, gips zavodu və STEAM məktəbləri, SOCAR-ın yeni yanacaqdoldurma məntəqələri, "Sea Breeze Uzbekistan", "Baku City", gümüş tərkibli filizin emalı fabriki və meyvə bağları kimi layihələrin açılış və təməlqoyma mərasimlərinin keçirilməsi artıq formalaşmış sabit, proqnozlaşdırılan müttəfiqlik münasibətləri fonunda iş adamlarının da qarşılıqlı investisiyaya marağının artdığını göstərir.

## Səfər Azərbaycan-Mərkəzi Asiya münasibətləri fonunda

Bakı-Daşkənd əməkdaşlığı həm də Azərbaycan-Mərkəzi Asiya münasibətləri fonunda dəyərləndirilməlidir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu gün Mərkəzi Asiya və Azərbaycan böyük potensiala, eyni zamanda, bundan da böyük inkişaf imkanlarına malik vahid geosiyasi və geoiqtisadi regiondur: "Bu böyük, hətta deyərdim ki, yenidən yaradılmış və artıq kifayət qədər inteqrasiya olunmuş regionun inkişafının ümumi müsbət dinamikası da bu halda Özbəkistan və Azərbaycan arasında sıx qarşılıqlı əlaqələrdən asılıdır".

Beynəlxalq gərginliklər fonunda qlobal təchizat zəncirlərinin parçalanması bu əməkdaşlığı daha da zəruri edir. Bu baxımdan Azərbaycanın C5 formatına qoşulması yalnız diplomatik addım deyil, vahid regional təhlükəsizlik arxitekturasının və möhkəm iqtisadi körpünün yaradılması baxımından mühüm hadisədir. Belə inteqrasiya qlobal şoklar qarşısında Mərkəzi Asiya və Cənubi Qafqaz regionunun, həmçinin Türk dünyasının dayanıqlılığını daha da gücləndirir. Qeyd edək ki,



Özbəkistan bu gün Qarabağın bərpasına ən mühüm töhfələr verən ölkələr sırasındadır. Bu məqam Prezident İlham Əliyev tərəfindən də xüsusi vurğulanıb. Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəb, Xankəndidə tikiş fabriki və regionda digər layihələrin həyata keçirilməsi bunun nümunələridir. Bu ərazilərə yatırılan özbək sərmayəsi iki xalq arasında yalnız siyasi deyil, həm də mənəvi həmrəyliyin göstəricisi kimi dəyərləndirilə bilər. Beləliklə, Prezident İlham Əliyevin Özbəkistana son səfəri bir daha göstərdi ki, iki ölkə arasında strateji müttəfiqlik, qarşılıqlı əlaqələr konkret iqtisadi güc, regional əməkdaşlıq və yeni geoiqtisadi imkanlar fonunda tamamilə yeni müstəviyə qədəm qoyub. Bu münasibətlər hər iki ölkənin, o cümlədən bütövlükdə türk dünyasının hədəflərinə çatmasında önəmli rola malikdir.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# 12 MİLYARDLIQ HƏDƏF REALDIRMI?

## "Gəlirin 70%-i may-oktyabr ayına təsadüf edir"

**Bugünlərdə təsdiqlənən Dövlət Proqramında turizm sektorunun yaratdığı əlavə dəyərin 12,2 milyard manata çatdırılması hədəflənir. Bununla turizmin qeyri-neft-qaz iqtisadiyyatındakı payının artırılması nəzərdə tutulur. Bəs bu hədəfə nail olmaq mümkündürmü?**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Azərbaycan 2030-cu ilədək turizmi iqtisadiyyatın əsas sahələrindən birinə çevirməyi nəzərdə tutur. Bugünlərdə təsdiqlənən Dövlət Proqramında sektorun yaratdığı əlavə dəyərin 12,2 milyard manata, xarici turistlərin ölkədə xərclədiyi vəsaitin isə 6,3 milyard manata çatdırılması hədəflənir. Bununla turizmin qeyri-neft-qaz iqtisadiyyatındakı payının artırılması nəzərdə tutulur. Bəs bu hədəfə nail olmaq mümkün olacaqmı?

### AVİABİLET QİYMƏTLƏRİNİN AŞAĞI SALINMASI VACİB FAKTOR KİMİ

Turizmçi Əfsun Əhmədov hesab edir ki, 2030-cu ilə qədər turizmdə 12 milyard manat hədəfi realdır. Amma bunun üçün neftdən asılılığı azaldıb turizmi "ixrac sektoru" kimi görmək lazımdır: "Hazırda Azərbaycanın turizm gəliri təxminən 5,5-6 milyard manat civarındadır. Biz bunu iki dəfə artırmalıyıq. Bunun üçün ilk növbədə ölkəmizin yerləşdiyi bölgədə geosiyasi vəziyyətin sabit qalması vacibdir".



Əfsun Əhmədov

Turizmçi ikinci faktor kimi aşağı büdcəli aviaşirkətlərin ölkəyə cəlbini önəmli hesab edir: "Digər hava yolları ilə tranzit müqavilələr olsa, aviabilet qiymətlərinin aşağı salınmasına nail ola bilərik".

Ə.Əhmədovun fikrincə, viza məsələləri də qarşıya qoyulan hədəfə çatmaq üçün vacib amildir. Belə ki, e-viza veriləcək ölkələrin sayının artırılması Azərbaycanı daha rahat səfər ediləcək ölkələr siyahısında önə çıxarmış olacaq: "Bundan əlavə, vergi güzəştləri də vacibdir. 4-5 ulduzlu hotellərdə ƏDV geri qaytarmanın tətbiq edilməsi turistlərin böyük marağına səbəb ola bilər. Bu, həm də hotellərin doluluğunu artırar. Digər tərəfdən, turizm operatorlarının gəlir vergisinə müəyyən endirim və güzəştlərin tətbiq olunması da yaxşı olardı. Şirkətlər bununla nağdsız əməliyyatları artıra bilərlər".

### HOTEL, YOL VƏ NƏQLİYYAT İNFRASTRUKTURU

Ə.Əhmədovun fikrincə, hədəfə çatmaq üçün ölkə ərazisində hotel sayını da artırmağa ehtiyac var: "2030-cu ildə 12 mln turist üçün 80 000 otaq lazımdır. İndi təxminən 35 000 otaq var. Regionlarda 3-4-5 ulduzlu hotellərin sayı azlıq təşkil edir. Eyni zamanda, ingilis, ərəb, çin dilində bələdçi, xidmət personalı qıtlığı da mövcuddur. Turistlər üçün müvafiq yol və nəqliyyat infrastrukturu da yaradılmalıdır. Bölgələrə müntəzəm avtobus marşrutlarının yaradılması yaxşı olardı. "Beyond Baku" brendi yaradıla bilər".

Ekspertin fikrincə, Azərbaycanda təşkil olunan Formula-1, COP29 kimi tədbirlərin, müəyyən idman yarışlarının sayını artırmaqla da ölkəmizə olan marağın artmasına nail ola bilərik: "Bu da öz növbəsində turist sayının və paralel olaraq ölkəyə gələn valyutanın çoxalmasına gətirib çıxaracaq".




Ə.Əhmədov hesab edir ki, UNESCO, İpək yolu marşrutu, şərab turları, qastronomiya turlarının təşkilinə daha önəm verilməlidir: "Avropa üçün fərqləndirici məqam budur. Həmçinin sağlamlıq turizmi də ən çox gəlir gətirəcək sahələrdən biridir. Bir tibbi turist on adi turist qədər xərcləyir. Fikrimcə, mövsümü 12 aya yaymaqla ilin istənilən fəsli üçün gələcək turistlərin sayı arta bilər. Hazırda turizmdən gələn gəlirin 70%-i may-oktyabr ayına təsadüf edir". Turizmçi göstərilən xidmətlərin keyfiyyətini də vacib məsələlərdən hesab edir: "Hava limanından tutmuş, nəqliyyat, hotel, restoran və turistlərə xidmət göstərilən digər aidiyyəti məkanlarda xidmət səviyyəsinin yüksəldilməsi çox vacibdir. Əsas məqsədimiz real turist sayının artırılması olmalıdır. Qarşımıza məqsəd kimi qoyduğumuz 12,2 mld manatlıq dövriyyəyə nail olsaq, bu, ÜDM-in 7-8%-ni təşkil edir. Beləliklə, yalnız bu yolla neftdən asılılığı 15% azaltmış olarıq".

## "Kadrların hazırlanması işini genişləndirmək lazımdır"

Turizm üzrə ekspert Əziz Şiriyev hesab edir ki, quru sərhədlərin açılması qarşıya qoyulan məqsədlərə çatmaqda müsbət təsirini göstərəcək: "Aşağı büdcəli hava yollarının uçuşlar həyata keçirməsi xeyli sayda turistin cəlb olunmasına səbəb olacaq. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması, Naxçıvanın blokadadan çıxması, Qarabağın və digər regionların daha da inkişaf etməsi də turizmin inkişafına töhfə verəcək. Hesab edirəm ki, turistlərin ölkəmizə cəlb olunması təkcə standart turizmlə məhdudlaşmayacaq, digər turizm növlərinin də inkişafını labüd edəcək. Sağlamlıq, aqroturizm, ekstremal turizm, kənd turizminin və s. turizm növlərinin inkişafına şərait yaranacaq". Ə.Şiriyev görülməli işlər sırasında iki məqamı xüsusi vurğulayır: "Gələn turistlərə münasibətdə qonaqpərvərliyimiz öz yerində, amma insanların maarifləndirilməsi də çox önəmlidir. Kadrların hazırlanması işini genişləndirmək, Bakıda və regionlarda turizm sənayesində çalışanların təlimatlandırılması, master-klassların keçirilməsi lazımdır. Fikrimcə, bütün bunların həyata keçirilməsi turist axınının artmasına və qoyulan hədəflərə çatmağa imkan verəcək".



Əziz Şiriyev

### "ƏSAS SƏNƏDDƏ YER ALAN MƏSƏLƏLƏRİN NECƏ İCRA EDİLƏCƏYİDİR"

İqtisadçı Elman Sadıqov hədəflərin real olması ilə bağlı indidən fikir söyləməyin tez olduğunu düşünür: "Çünki hədəfə çatmaq üçün təkcə proqramın olması kifayət deyil. Əsas sənəddə yer alan məsələlərin necə icra ediləcəyidir. Məsələn, əsalandırılmalıdır ki, 5 milyarddan 12 milyarda çatmaq üçün hansı yol keçiləcək. Əsas məsələlərdən biri kadrlarla bağlıdır. Digər tərəfdən, ölkəmizdə turizmin inkişafı ilə bağlı turizmin özündən asılı olan və olmayan məsələlər var. Məsələn, viza, hotel, aviabilet, xidmət sektorundakı vəziyyət və s. Xidmət sektorunun güclənməsi, rəqabətin təmini, nəzarət mexanizminin düzgün qurulması məsələləri də var. Bütün bunlar öz həllini tapacaqsa, onda proqramda yer alan məsələlərin icrası mümkün olacaq".



Elman Sadıqov

# KOREYA YARIMADASINDA YENİ OYUN



Tramp masaya qayıtmaq, Kim isə masaya oturmaq üçün şərtləri dəyişdirmək istəyir. Məhz bu ziddiyyət qarşıdakı aylarda ABŞ-Şimali Koreya diplomatiyasının əsas mübarizə xəttini təşkil edəcək.





AZƏR NURİYEV

ABŞ Prezidenti Donald Tramp payızda keçiriləcək növbəti ASEAN (Cənub-Şərqi Asiya ölkələri) sammitində Şimali Koreya lideri Kim Çen Inla görüşmək niyyətindədir. Ağ ev rəhbəri bəyan edib ki, Şimali Koreya lideri ona hörmət edir və onların arasında əsl qarşılıqlı anlaşma var. İndi əsas sual budur - Tramp niyə yenidən Kimlə dostluq etmək istəyir? Bu sual hazırda beynəlxalq gündəmin əsas mövzularından biridir.

### TRAMPIN GÖZLƏNİLMƏZ QƏRARI

ABŞ ilə Şimali Koreyanın yaxınlaşmasının növbəti mərhələsi haqqında xəbərlər Trampın Cənubi Koreya ilə birgə hərbi təlimlərdən imtina etməsindən sonra ortaya çıxıb. Daha doğrusu, Tramp planlaşdırılan təlimləri 11 gündən 4 günə endirib. 1969-cu ildən bəri hər il böyük miqyasda keçirilən "Ulçi Azadlıq Qalxanı" təlimlərinin ərəfəsində amerikalı general-leytenant Skott Uinter bəyan edib ki, bu il "Qalxan" həmişəkindən "daha genişmiqyaslı və daha yaxşı olacaq". Lakin sonradan məlum olub ki, Trampın öz planları var. Ötən həftə Tramp "Truth Social"da yazıb ki, ABŞ-nin təlimlərdə iştirakından narazıdır. Onun fikrincə, təlimlər nəinki ölkəyə çox baha başa gəlir, həm də təhlükə yaratmayan və başqalarına hörmətlə yanaşan ölkəyə (Şimali Koreyaya) qarşı tamamilə yersiz və düşməncəsinədir. 20 mindən çox hərbçinin iştirak etdiyi təlimləri ləğv etmək artıq gec olduğundan, Tramp Pentaqona onların müddətini qısaltmağı əmr edib. Cənubi Koreya da təsdiqləyib ki, təlimlər planlaşdırılandan 6 gün əvvəl başa çatacaq. Cənubi Koreyanın xarici işlər naziri bildirib ki, Seul Trampın planlarından xəbərsiz olub. "Ulçi Azadlıq Qalxanı" bütün tarixi ərzində cəmi üç dəfə ləğv edilib: 1992, 1994 və 2018-ci illərdə.

### ƏSAS GÜNDƏM NƏ OLACAQ?

Yeni Tramp-Kim görüşündə bir neçə məsələ əsas müzakirə mövzusu ola bilər. Birinci məsələ nüvə proqramıdır. ABŞ ən azı nüvə və raket proqramının inkişafının məhdudlaşdırılmasına çalışacaq. Lakin Pxenyanın tam nüvəsizləşməyə razılaşması hazırkı şərtlərdə olduqca çətin görünür. İkinci məsələ sanksiyalardır. Şimali Koreya iqtisadi təzyiqlərin yumşaldılmasını tələb edə bilər. Vaşinqton isə mümkün güzəştləri Pxenyanın konkret addımları ilə əlaqələndirməyə çalışacaq. Üçüncü məsələ hərbi təlimlərdir. Pxenyan ABŞ-Cənubi Koreya təlimlərinin dayandırılmasını və ya daha da məhdudlaşdırılmasını tələb edə bilər. Dördüncü məsələ diplomatik münasibətlərdir. Vaşinqton və Pxenyan arasında daha davamlı diplomatik kanalın yaradılması ehtimalı böyükdür. Beşinci məsələ raket proqramıdır. Şimali Koreyanın qitələrarası ballistik raketləri ABŞ üçün əsas təhlükəsizlik problemlərindən biridir.



## Yenidən ən yaxşı dostlar?

Tramp görüşün bu ilin sonunda baş tutacağını bildirib, lakin nə dəqiq tarix, nə də məkan açıqlanıb. ABŞ mediasında daha çox noyabr ayında Şençjendə keçiriləcək APEC sammiti ətrafında mümkün görüşdən danışılır. Bu səbəbdən sentyabr ayı daha çox hazırlıq və diplomatik kanalların intensivləşməsi mərhələsi kimi qiymətləndirilir. Əgər Vaşinqton və Pxenyan sentyabrda ilkin razılaşmalara nail olsalar, noyabrda daha yüksək səviyyəli görüşün keçirilməsi üçün zəmin yaranacaq. Şimali Koreyanın da mövqeyi maraq doğurur.



Pxenyan Trampın səxavətli jestini qiymətləndirməyib: 19 avqustda - birgə təlimlərin 6 gün əvvəl başa çatacağı məlum olduqda, yenidən etirazını bildirib, qısaldılmış manevrləri də "işğal məşqi" adlandırıb. Bəs Kim Trampla görüşə hazırdırmı? Bununla bağlı Şimali Koreya rəhbərliyindən heç bir rəsmi bəyanat verilməyib. Ehtimal olunur ki, KXDR lideri görüş imkanından imtina etməyəcək. Çünki bu, onun diplomatik mövqelərini möhkəmləndirəcək. ABŞ ilə yaxınlaşma qonşu Cənubi Koreyaya təzyiq vasitəsinə çevriləcək.

## Seul nüvə silahı əldə edəcək?

Ekspertlər bildirirlər ki, əgər Tramp və Kim Çen Inın danışıqları baş tutarsa və ya Cənubi Koreyanı yan keçərək ABŞ ilə KXDR-in yaxınlaşması istiqamətində hər hansı digər addımlar atılarsa, bu, Asiya regionunda yeni problemlər yaradacaq. Seulun öz nüvə silahı barədə düşünmə ehtimalı da istisna deyil. Son sorğulara görə, ölkə əhalisinin 70%-i nüvə başlıqlarının yaradılmasını dəstəkləyir, mühafizəkar siyasətçilər isə çoxdan deyirlər ki, Şimali Koreyanın nüvə gücünü yalnız öz nüvə gücləri ilə cilovlamaları mümkündür.

### "YENİ SİNQAPUR", YOXSA "YENİ HANOY"?

Tramp-Kim görüşünün gələcəyi əsasən bu iki ssenaridən birini təkrarlayacaq. "Yeni Sinqapur" ssenarisi - tərəflər nüvə məsələsində tam razılığa gəlməsələr belə, münasibətlərin yaxşılaşdırılması, hərbi gərginliyin azaldılması və yeni danışıqlar mexanizminin yaradılması barədə razılaşırlar. "Yeni Hanoy" ssenarisi – tərəflərin əsas tələbləri bir-birinə uyğun gəlmir və görüş nəticəsiz başa çatır. İkinci ssenari ehtimalı kifayət qədər yüksəkdir. Çünki Vaşinqton hələ də nüvə təhlükəsinin məhdudlaşdırılmasını istəyir, Pxenyan isə nüvə arsenalını öz təhlükəsizliyinin fundamental elementi hesab edir. Yeni Tramp-Kim diplomatiyasının nəticələri yalnız ABŞ və Şimali Koreya ilə məhdudlaşmayacaq. Yaponiya və Cənubi Koreya prosesin əsas tərəfləri olacaq. Çin isə öz sərhədlərində ABŞ-Şimali Koreya yaxınlaşmasının hansı istiqamətdə inkişaf etdiyini diqqətlə izləyəcək. Rusiya da Pxenyanla artan strateji əməkdaşlığı fonunda prosesə təsir göstərmək imkanına malikdir. Əgər ABŞ Şimali Koreyanın nüvə statusunu faktiki qəbul edən siyasətə keçərsə, bu, Yaponiya və Cənubi Koreyada ciddi strateji müzakirələrə səbəb ola bilər.

Hazırkı mənzərə göstərir ki, Tramp masaya qayıtmaq, Kim isə masaya oturmaq üçün şərtləri dəyişdirmək istəyir. Məhz bu ziddiyyət qarşıdakı aylarda ABŞ-Şimali Koreya diplomatiyasının əsas mübarizə xəttini təşkil edəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# ERMƏNİSTANDA YENİ SİYASİ GƏRGİNLİK

Paşinyan hökuməti kənardan idarə olunan revanşist qüvvələrə və keçmiş Qarabağ klanına, böyük təsir imkanlarına malik oliqarxlara qarşı ciddi tədbirlər görməyə başlayıb. Bu tədbirlərin Rusiyanın Ermənistan daxilindəki mövqelərinin zəiflədilməsinə hesablandığı aşkardır.





AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Ermənistanda keçirilən parlament seçkilərində Nikol Paşinyanın böyük üstünlüklə qalib gəlməsindən sonra ölkə daxilində yeni siyasi gərginliklər yaşanır. Azərbaycanın tarixi qələbəsinin Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqlar və seçkilərdə əldə edilən qələbənin verdiyi imkanlardan istifadə edən Nikol Paşinyan rəqiblərinə qarşı yeni hücum strategiyasına start verib.

## MÜNAQİŞƏ VƏ SÜLH MƏNTİQİ

Hər şey Ermənistan parlamentinin hökumətin 2026–2031-ci illər üzrə proqramını təsdiqləməsi ilə başlayıb. Proqramın xarici siyasətə həsr olunmuş bölməsində qeyd edilib ki, hökumət Azərbaycanla sülhü rəsmiləşdirmək, Türkiyə ilə münasibətləri normallaşdırmaq, Avropa İttifaqı, ABŞ, İran və Gürcüstanla strateji əlaqələri, həmçinin Rusiya ilə çoxtərəfli münasibətləri inkişaf etdirmək niyyətindədir. Baş nazir qeyd edib ki, proqram tamamilə "Real Ermənistan" ideologiyasına və Dördüncü Respublika baxışına əsaslanır. Paşinyanın sözlərinə görə, Üçüncü Respublikanın Dördüncü Respublikadan nə ilə fərqləndiyini qeyd etmək vacibdir. "Üçüncü Respublika ilk gündən münaqişə məntiqinə əsaslanırdı, Dördüncü Respublika isə sülh məntiqi əsasında formalaşıb", - Baş nazir qeyd edib.

## PAŞİNYAN ÜÇÜN ƏN BÖYÜK MANEƏ

Paşinyanın hesablamalarına görə, növbəti iqtidar dönəmində qarşıya qoyulan hədəflərə çatmaq istiqamətində ən böyük maneə Ermənistan daxilində kənardan idarə olunan revanşist qüvvələr və keçmiş Qarabağ klanı, həmçinin böyük təsir imkanlarına malik oliqarxlardır. Burada kənar qüvvə dedikdə Rusiyanın nəzərdə tutulması heç kimə sirr deyil. Artıq Paşinyan hökuməti nəzərdə tutduğu bu maneənin aradan qaldırılması üçün əməli addımlar atmağa başlayıb.

## KÖÇƏRYANIN HƏBSİ, SARQSYANA İTTİHAM

Belə ki, Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi ölkənin sabiq prezidenti, Xocalı qatili Robert Köçəryan haqqında iki ay müddətinə həbs qətimkan tədbiri seçib. Robert Köçəryana külli miqdarda çirkli pulların yuyulması, vəzifə səlahiyyətlərindən sui-istifadə və külli miqdarda rüşvət alma faktları üzrə ittihamlar irəli sürülüb. İstintaqın versiyasına görə, o, ölkə prezidenti olduğu dövrdə qulluq mövqeyindən istifadə edərək başqa şəxslərlə əlbir olub ictimai və iqtisadi əhəmiyyətli bir sıra obyektləri bazar qiymətindən aşağı qiymətə əldə edib. Cinayət icraatı çərçivəsində altı nəfər, o cümlədən R. Köçəryan, onun oğlu və digər şəxslər saxlanılıb. Ermənistanın sabiq prezidenti, azərbaycanlılara qarşı soyqırımların həyata keçirilməsinin ən fəal iştirakçılarından olmuş Serj Sarqsyana isə ölkəni tərk etmək qadağan edilib. Serjə ölkənin ikinci prezidenti R. Köçəryana qarşı başlanmış cinayət işi çərçivəsində vəzifə səlahiyyətlərindən sui-istifadə etmənin üç epizodu, xüsusilə külli miqdarda rüşvət almanın iki epizodu və xüsusilə külli miqdarda çirkli pulların yuyulmasının dörd epizodu üzrə ittihamlar irəli sürülüb. Bu sıraya Samvel Karapetyan və Tsarik Sarukyan kimi oliqarxlara qarşı başlanılmış cinayət işlərini də əlavə edə bilərik.







Serj Sarqsyan Robert Köçəryan

## Avropa İttifaqına üzvlük, KTMT-dən çıxmaq

Əslində bu həbslərin həm də Paşinyanın kənar qüvvə adlandırdığı Rusiyanın Ermənistan daxilindəki mövqelərinin zəiflədilməsinə hesablandığı aşkardır. Seçkilərdən sonra Moskvanın rəsmi səviyyədə Paşinyanı qələbə münasibəti ilə təbrik etməməsi, İrəvana qarşı tətbiq olunan iqtisadi təzyiqlər Ermənistan-Rusiya qarşıdurmasının daha da gərginləşəcəyinin ilkin anonsları idi. Bu gərginlik Paşinyanın son açıqlamaları fonunda yeni müstəviyə keçib. Baş nazir Ermənistanın Avropa İttifaqına üzvlüklə bağlı müraciət etməyə hazırlaşdığını bəyan edib. Həmçinin Rusiyaya Ermənistanın dəmir yollarının konsessiya hüququnu təxminən 400 milyon dollara satmağı təklif edib.

Paşinyan bildirib ki, Ermənistan dəmir yollarının Rusiya tərəfindən idarə olunmasının davam etməsi Ermənistan üçün beynəlxalq dəmir yolu şəbəkələrinə inteqrasiya imkanlarını əldən vermək riski yaradır. Paşinyan ölkənin gələcək təhlükəsizlik arxitekturası ilə bağlı da açıqlamalar verib. Qeyd edib ki, İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qayıtmaq niyyətində deyil və oradan çıxarılmasını gözləyir. "Əgər Ermənistanı KTMT-dən xaric etmək qərarına gəlsələr, çox məmnun olacağam. Bu, bizi çıxmaq, yoxsa çıxmamaq seçimindən azad edəcək. Bizim KTMT-yə olan marağımız tükənib", - o əlavə edib.

## "Ermənistan və Azərbaycan xalqları ən yaxşı sülhməramlılardır"

Bütün bu açıqlamalar Rusiyanın Ermənistan siyasətində qırmızı xətlərin keçilməsi anlamına gəlir. Moskva hələlik Ermənistan daxilindəki siyasi dayaqları hesab olunan revanşistlərin həbsinə səssiz qalsa da, KTMT ilə bağlı mövqeyini ortaya qoyub. "Mən "çıxarılsaydı, məmnun olardım" ifadəsinin nə demək olduğunu anlamaqda çətinlik çəkirəm. Əgər İrəvan öz milli maraqları baxımından regional təhlükəsizliyin təmin edilməsi üzrə belə mühüm təşkilata üzvlüyə artıq ehtiyac duymursa, o zaman müvafiq qərar qəbul etməkdə və bu təşkilatı tərk etməkdə sərbəstdir", - deyə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Paşinyan isə daha da irəli gedərək müxalifətin Ermənistana KTMT sülhməramlılarının yeridilməsini istədiyini bildirib. "Sizin məqsədiniz odur ki, KTMT sülhməramlıları Ermənistana daxil olsun. Heç bir KTMT sülhməramlısı, ümumiyyətlə, heç bir xarici sülhməramlı olmayacaq. Çünki sülh bərqərar olub, Ermənistan və Azərbaycan xalqları ən yaxşı sülhməramlılardır", - Paşinyan bildirib.

# KREDİT PORTFELİNDƏ QIRMIZI İŞIQ



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Problemli kreditlərin həcmi artsa da, ekspertlər bunu kredit böhranı kimi qiymətləndirmirlər. Onların fikrincə, əsas məsələ kredit portfelinin keyfiyyətinin qorunması, risklərin düzgün idarə olunması və borcalanların ödəmə qabiliyyətinin diqqətlə izlənilməsidir.**

Azərbaycanda problemli kreditlərin həcmi yenidən diqqət mərkəzinə düşüb. Mərkəzi Bankın məlumatına görə, bu ilin iyun ayının sonunda vaxtı keçmiş kreditlərin məbləği 719,3 milyon manata çataraq 2022-ci ilin yanvarından bəri ilk dəfə 700 milyon manat həddini ötüb. Eyni zamanda, 30 gündən artıq gecikdirilən kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi də 2%-i keçib ki, bu da 2023-cü ilin sentyabrından bəri qeydə alınan ən yüksək göstəricidir. Bəs problemli kreditlərin artmasının əsas səbəbləri nələrdir? Mövcud dinamika müvəqqəti xarakter daşıyır, yoxsa daha uzunmüddətli tendensiyanın başlanğıcıdır?

### "BU DİNAMİKA DİQQƏTLƏ İZLƏNİLMƏLİDİR"

Maliyyə məsələləri üzrə mütəxəssis Elmin Nemətlinin sözlərinə görə, vaxtı keçmiş kreditlərin məbləğinin artması bank sisteminin böhran mərhələsinə daxil olması demək deyil: "Bununla belə, dinamika həm bank sektorunun dayanıqlığı, həm də borcalanların ödəmə qabiliyyəti baxımından diqqətlə izlənilməlidir. Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, 2026-cı ilin ilk altı ayında iqtisadiyyata verilmiş kreditlərin ümumi həcmi banklar və qeyri-bank kredit təşkilatları üzrə 33,9 milyard manata çatıb. Kredit portfeli böyüdükcə müəyyən hissəsinin gecikməyə düşməsi təbii proses hesab olunsa da, əsas məsələ problemli kreditlərin daha sürətlə artmasıdır. Əgər 2025-ci ilin sonunda kredit portfeli 31,9 milyard manat, vaxtı keçmiş kreditlərin həcmi 525 milyon manat idisə, 2026-cı ilin ilk yarısında bu göstəricilər müvafiq olaraq 33,9 milyard manat və 719,3 milyon manata yüksəlib. Nəticədə problemli kreditlərin portfeldə payı 2 faizdən yuxarı qalxıb. Təkcə altı ayda vaxtı keçmiş kreditlərin həcmi 195 milyon manat və ya 37 faiz artıb".

### "GECİKMƏLƏRİN KREDİTLƏŞMƏNİ ÜSTƏLƏMƏSİ RİSK SİQNALIDIR"

E.Nemətli bildirdi ki, problemli kreditlərin artmasının əsas səbəblərindən biri kredit portfelinin sürətlə genişlənməsidir: "Gecikmələrin kreditləşməni üstələməsi risk siqnalıdır. Xüsusilə problemli kreditlərin payının 2 faizi keçməsi kredit portfelinin keyfiyyətində zəifləmə meylini göstərir. Digər mühüm amil əhalinin borclanma səviyyəsinin yüksəlməsidir. Son illərdə istehlak kreditlərinin payı artıb və bu kreditlər cari xərclərin maliyyələşdirilməsinə yönəldiyi üçün biznes kreditləri ilə müqayisədə daha risklidir. Ailə gəlirləri sabit qaldığı halda kredit öhdəliklərinin artması borc yükünü ağırlaşdırır və gecikmə ehtimalını yüksəldir. Risklərin artmasına kredit portfelinin strukturu da təsir edir. Girovsuz istehlak kreditlərində gecikmə ehtimalı daha yüksəkdir. Eyni zamanda rəqəmsal bankçılığın inkişafı kreditə çıxışı asanlaşdırsa da, bəzi hallarda borclanma qərarlarının kifayət qədər qiymətləndirilmədən qəbul edilməsinə səbəb olur".



## "Artım davam edərsə..."

Mütəxəssisin fikrincə, pandemiyadan sonra kredit portfelinin sürətlə böyüməsi onun keyfiyyətinin qorunmasını çətinləşdirib: "Beynəlxalq təcrübə də göstərir ki, kredit artımının yüksək olduğu dövrlərdə risklərin düzgün qiymətləndirilməsi maliyyə sabitliyinin əsas şərtlərindən biridir. Problemli kreditlərin artımını yalnız istehlak kreditləri ilə əlaqələndirmək düzgün olmaz. Kiçik və orta sahibkarlıq subyektləri də tələbin dəyişməsi, logistika və istehsal xərclərinin artması səbəbindən öhdəliklərini yerinə yetirməkdə çətinlik çəkə bilirlər. Buna görə də vəziyyət həm əhalinin, həm də real sektorun maliyyə durumu fonunda qiymətləndirilməlidir. Hazırda problemli kreditlərin ümumi portfeldə payının 2 faizi keçməsi böhran göstəricisi deyil və beynəlxalq praktikada 2-3 faiz idarəolunan risk hesab olunur. Lakin artım tendensiyası davam edərsə, bankların risk xərcləri arta və kredit siyasəti daha ehtiyatlı ola bilər. Beynəlxalq təcrübə göstərir ki, erkən xəbərdarlıq sistemləri, süni intellekt əsaslı risk modelləri və çevik restrukturizasiya mexanizmləri problemli kreditlərin yaranmasının qarşısını almaqda daha effektivdir. Azərbaycan bankları üçün də əsas prioritet kredit portfelinin həcmini deyil, keyfiyyətini artırmaq olmalıdır".







## "Bankların maliyyə dayanıqlığına təsiri məhdud qalır"

Kredit mütəxəssisi İsmayıl Məmmədovun sözlərinə görə, 2026-cı ilin ilk yarısının yekununda problemli kreditlərin həcminin 719,3 milyon manata, ümumi kredit portfelində payının isə 2 faizdən yuxarı qalxması bəzi hallarda bank sektorunda risklərin artması kimi qiymətləndirilsə də, bu göstərici hazırkı mərhələdə kredit böhranı anlamına gəlmir: "Mövcud dinamika daha çox son illərdə kredit portfelinin sürətlə genişlənməsinin təbii nəticəsidir. Azərbaycan Mərkəzi Bankının tətbiq etdiyi prudensial tələblər nəticəsində bank sektorunun kapital adekvatlığı beynəlxalq minimum tələblərdən yüksəkdir. Bu isə bankların mümkün kredit itkilərini qarşılamaq üçün kifayət qədər maliyyə ehtiyatına malik olduğunu göstərir. Eyni zamanda problemli kreditlərin əhəmiyyətli hissəsi üzrə əvvəlcədən ehtiyatlar formalaşdırıldığından onların bankların maliyyə dayanıqlığına təsiri məhdud qalır".

### "BANK SEKTORU RİSKLƏRƏ QARŞI DAYANIQLIDIR"

Ekspert qeyd edir ki, Mərkəzi Bankın mütəmadi keçirdiyi stres-testlərin nəticələri də bank sektorunun dayanıqlığını təsdiqləyir: "Hətta iqtisadiyyatda daha mənfi ssenarilər baş verdiyi halda belə, bank sisteminin kapital göstəricilərinin təhlükəsiz səviyyədə qalacağı proqnozlaşdırılır. Bununla yanaşı, 2021–2023-cü illərdə kredit portfelinin sürətlə böyüməsi fonunda müəyyən həcmdə problemli kreditlərin yaranması statistik baxımdan gözlənilən haldır. Makroiqtisadi baxımdan mövcud göstəricilər idarəolunan hesab olunur. Problemli kreditlərin həcmi ölkənin ÜDM-i ilə müqayisədə aşağı səviyyədədir və beynəlxalq təcrübədə daha yüksək göstəricilərə malik ölkələrdə belə bank sistemləri sabit fəaliyyət göstərir".

### "RƏQƏMSAL NƏZARƏT PROBLEMLİ KREDİT RİSKİNİ AZALDIR"

İ.Məmmədov bildirdi ki, banklar hazırda risklərin idarə olunmasında rəqəmsal texnologiyalardan və süni intellekt əsaslı erkən xəbərdarlıq sistemlərindən istifadə edirlər: "Bu sistemlər müştərilərin ödəniş davranışını əvvəlcədən təhlil edərək mümkün gecikmələri erkən mərhələdə müəyyənləşdirməyə və qabaqlayıcı tədbirlərin görülməsinə imkan yaradır. Qarşıdakı dövrdə əsas diqqət problemli kreditlərin mövcud səviyyəsindən daha çox, onların artım tempinin məhdudlaşdırılmasına yönəldilməlidir. Bunun üçün risklərin düzgün qiymətləndirilməsi, məsuliyyətli kreditləşmə prinsiplərinin qorunması və əhalinin dayanıqlı gəlirlərinin artırılmasına xidmət edən iqtisadi proqramların davam etdirilməsi vacibdir".

## ŞADLIQ SARAYLARI BÖHRANDAN ÇIXMAQ ÜÇÜN KONSEPTİNİ DƏYİŞİR, BİR ÇOX HALLARDA MENYUNU BAHALAŞDIRIR

# TOY SEKTORU ALTERNATİV AXTARIŞINDA

HAZIRLADI

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Toyların sayında müşahidə olunan kəskin azalma toy sənayesini yeni reallıqlarla üz-üzə qoyub. Hazırda şadlıq sarayları, musiqiçilər, gəlinlik salonları, fotoqraflar maliyyə böhranı ilə üz-üzədirlər. Şadlıq sarayları böhrandan çıxmaq üçün konseptini dəyişir.

Son illərdə Azərbaycanda nikah və toyların sayında müşahidə olunan kəskin azalma təkcə demoqrafik mənzərəyə deyil, ölkə iqtisadiyyatının ən gəlirli sahələrindən biri sayılan toy sənayesinə də ağır zərbə vurub. Məlumdur ki, toylar təkcə iki ailənin şad günü deyil, minlərlə insanın gəlir əldə etdiyi böyük bir zəncirdir. Lakin hazırda şadlıq saraylarından tutmuş musiqiçilərə, gəlinlik salonlarından fotoqraflara qədər maliyyə böhranı ilə üz-üzədirlər.

### BU PEŞƏNİN SAHİBLƏRİ DƏYİŞƏN REALLIQLARA NECƏ UYĞUNLAŞIR?

Şadlıq sarayları bu böhrandan çıxmaq üçün konseptini dəyişir, bir çox hallarda menyunu bahalaşdırır.

Gəlinlik salonları da əvvəlki cəlbediciliyini və parıltısını qoruyub saxlaya bilmir. Salon sahibləri ilboyu müştəri qıtlığı yaşadıqlarını bildirirlər. Əksəriyyəti artıq xaricdən baha qiymətə yeni kolleksiyalar gətirməyi dayandırıb. Salonlardakı gəlinliklər endirimlə təklif olunur, hətta bir çox gəlinlik ad günü və xına mərasimləri üçün ziyafət libaslarına uyğunlaşdırılır. Gəlinlik salonları vəziyyətdən çıxış yolunu ziyafət libaslarının satışı və kirayəsində görür.

Gəlin maşını xidməti göstərənlər də yeni yollar axtarışındadır. Pandemiyadan əvvəl lüks və antikvar avtomobillərə tələbat kifayət qədər yüksək idi. Şəhərdə tez-tez bəy-gəlin avtomobillərinin icarəyə verildiyi obyektlərə rast gəlirdik. İndi isə tələbatın azalması fonunda avtopark sahibləri avtomobilləri toy xidmətlərindən çıxararaq VIP transferlərə, xarici qonaqların qarşılanmasına, eləcə də kino və klip çəkilişlərinə yönəldirlər.

### TOYLARA ARTIQ TAMADA DƏVƏT EDİLMİR

Bəs toyların olmazsa-olmazı sayılan tamadalar və müğənnilər vəziyyətdən necə çıxırlar?


Samir Dübəndi

Dəbdəbəli toylardan imtina edilməsi və kiçik, qapalı məclislərə üstünlük verilməsi klassik "tamada" anlayışını demək olar ki, aradan qaldırıb. İndi ev sahibləri ayrıca aparıcı tutaraq əlavə xərcə düşmək istəmirlər. Müğənnilər hibrid rola keçərək həm oxuyur, həm də məclisi idarə edirlər. Şou-proqramların, rəqs qruplarının və illüziyaçıların toylardakı çıxışları da kəskin azalıb. Onlar diqqəti uşaq ad günlərinə və korporativ tədbirlərə yönəldərək fəaliyyətlərini bu istiqamətdə davam etdirirlər.

### FOTOQRAFLAR YENİ BAZARLARA İNTEQRASİYA OLUNMAĞA ÇALIŞIRLAR

Toy fotoqrafları və videoqraflar da yeni bazarlara inteqrasiya olunmağa çalışırlar. Bir vaxtlar sosial şəbəkələrdə öz işlərini reklam edən toy fotoqraflarına tez-tez rast gəlirdik. İndi isə toyların və sifarişlərin sayının azalması foto və video çəkiliş sektoruna da ciddi təsir edib. Təkcə toy çəkilişlərinə arxalanmağın mümkün olmadığını anlayan fotoqraflar fərdi portret, hamiləlik və körpə çəkilişlərinə üstünlük verirlər. Bir çox peşəkar operator isə avadanlıqlarını götürərək SMM agentlikləri ilə əməkdaşlığa başlayıb. Onlar artıq restoranlar, geyim brendləri və gözəllik salonları üçün reklam videoları "Reels" və "TikTok" formatında məzmunlar çəkərək gəlir əldə edirlər.

### "TƏLƏB VƏ TƏKLİF ARASINDA MÜƏYYƏN UYĞUNSUZLUQ VAR"

Hotellər və Restoranlar Assosiasiyasının sədri Samir Dübəndi "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, şadlıq saraylarının sürətli artımı nikahların və doğumun yüksək olduğu dövrün iqtisadi-demoqrafik gözləntiləri fonunda baş verib: "Məsələn, nikahların sayı 2003-cü ildəki 56 091-dən 2011-ci ildə 88 145-ə, doğulanların sayı isə 113 467-dən 176 072-yə yüksəlmişdi. Şadlıq saraylarının sayı üzrə ayrıca tarixi statistika olmadığı üçün birbaşa səbəb-nəticə əlaqəsini rəqəmlə sübut etmək mümkün deyil. Lakin həmin dövrdə biznesin böyük zallara və kütləvi məclislərə sərmayə qoyması iqtisadi baxımdan anlaşılan idi. Problem ondadır ki, demoqrafik və istehlak modeli dəyişsə də, infrastrukturların bir hissəsi hələ də əvvəlki tələbə hesablanıb. Rəsmi statistikaya əsasən, iaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı 2021-ci ildə 22 783-dən 2025-ci ildə 27 400-ə, iaşə obyektlərində oturacaq yerlərinin sayı isə 1,025 milyondan 1,395 milyona yüksəlib. Bu rəqəmlər yalnız şadlıq saraylarını deyil, bütün iaşə sektorunu əhatə edir. Bununla belə, ümumi tutumun artdığı, nikahların isə uzunmüddətli dövrdə azaldığı görünür. Deməli, bazarda tələb və təklif arasında müəyyən uyğunsuzluq formalaşır".

### TOY BANKETLƏRİNDƏN GÜNDƏLİK RESTORAN FORMATINA...

Mütəxəssis bildirir ki, əsas təsir iri toy məclislərindən asılı olan və başqa gəlir mənbəyi yaratmayan obyektlərdə hiss olunur: "Böyük zalın icarə, enerji, havalandırma, mühafizə, texniki xidmət, mətbəx və avadanlıq xərclərinin əhəmiyyətli hissəsi sabitdir. Qonaqların sayı 400-500 nəfərdən 100-150 nəfərə düşəndə gəlir azalır, lakin bu xərclər eyni nisbətdə aşağı düşmür. Nəticədə zalın doluluğu və bir tədbirdən əldə edilən mənfəət azalır. Bununla belə, bütövlükdə iaşə sektorunun tənəzzülə uğradığını demək düzgün olmaz. 2025-ci ildə ölkənin ictimai iaşə dövriyyəsi real ifadədə 12,2 faiz artaraq 2,809 milyard manata çatıb. 2026-cı ilin yanvar-iyul aylarında da dövriyyə 7,1 faiz artaraq 1,719 milyard manat təşkil edib. Deməli, problem bütün iaşə sektorunun kiçilməsindən daha çox tələbin iri toy banketlərindən gündəlik restoran, kafe, çatdırılma, kiçik tədbir və digər formatlara yönəlməsidir".

### "MENYUDAKI QİYMƏT ARTIMININ İQTİSADİ SƏBƏBİ VAR"

Maraqlıdır, menyu qiymətlərinin artırılması biznesi xilas edə bilərmi? Mütəxəssis bildirir ki, qiymət artımının müəyyən iqtisadi əsası var: "2026-cı ilin yanvar-iyul aylarında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri 6,8 faiz artıb. Ərzaq, əməkhaqqı, enerji, logistika və digər xərclərin bahalaşmasını biznes tamamilə nəzərə almaya bilməz. Lakin azalan müştəri sayını yalnız adambaşına menyu qiymətini qaldırmaqla kompensasiya etmək riskli və qısamüddətli yanaşmadır. Obyekt boş qalan böyük zalın və səmərəsiz biznes modelinin xərcini bir toyun qonaqlarına yükləyirsə, bu, tələbi daha da azalda bilər. Ailələr qonaq siyahısını kiçildəcək, daha münasib məkan seçəcək və ya fərqli məclis formatına keçəcəklər.



“Sadəcə lövhəni və obyektin adını dəyişmək maliyyə problemini həll etmir. Daha dayanıqlı variant çoxfunksiyalı tədbir məkanı yaratmaqdır.”







Daha sağlam strategiya müxtəlif büdcələr üçün şəffaf paketlər, həftəiçi və mövsümdənkənar tariflər, çevik menyular, standart reseptlər, dəqiq satınalma planı və qida itkilərinin azaldılmasıdır. Qiymət real məhsul və xidmət keyfiyyətini əks etdirməli, obyektin idarəetmə səmərəsizliyini kompensasiya etməməlidir".

S.Dübəndi deyir ki, sadəcə lövhəni və obyektin adını dəyişmək maliyyə problemini həll etmir: "Məsələn, "mərasim evi"nə çevrilmə hər obyekt üçün avtomatik rentabelli həll deyil. Bu formatda bir qonağa düşən gəlir toy məclislərindən aşağı ola bilər. Tələb, yerləşmə, ərazidə rəqabət, parklanma, mətbəx və yenidənqurma xərcləri əvvəlcədən hesablanmalıdır. Sadəcə lövhəni və obyektin adını dəyişmək maliyyə problemini həll etmir. Daha dayanıqlı variant çoxfunksiyalı tədbir məkanı yaratmaqdır. Eyni obyekt müxtəlif günlərdə toy, nişan, ad günü, korporativ tədbir, təlim, konfrans, sərgi və təqdimatlara xidmət edə bilər. Bununla belə, bazarda bütün iri şadlıq saraylarının əvvəlki profilində qalması da real görünmür. Tələbatı, yerləşməsi və infrastrukturu zəif olan bəzi obyektlərin başqa təyinata keçirilməsi, birləşdirilməsi və ya bazardan çıxması iqtisadi baxımdan qaçılmaz ola bilər".





### SEKTORUN KİÇİLMƏSİ İŞSİZLİYƏ DƏ CİDDİ TƏSİR EDİR

Sektorun kiçilməsi kadr axınına və işsizliyə də ciddi şəkildə təsir edir. Həmsöhbətimiz bildirir ki, 2025-ci ilin sonunda "turistlərin yerləşdirilməsi və ictimai iaşə" sahəsində məşğul əhalinin sayı 121 min, muzdla çalışan işçilərin sayı isə 83,3 min nəfər göstərilib. Bu rəqəmlər hotelləri və bütün ictimai iaşə sektorunu birlikdə əhatə edir: "Toy sektorunda azalma ilk mərhələdə həmişə rəsmi işdən çıxarma kimi görünmür. Əvvəlcə növbə və tədbir əsasında çalışan ofisiantların, aşpaz köməkçilərinin, qabyuyanların və texniki heyətin iş günləri və gəlirləri azalır. Bu təsir musiqiçilər, fotoqraflar, dekoratorlar, aparıcılar və nəqliyyat xidmətlərinə də yayılır. Sadəcə işçi sayını azaltmaq çıxış yolu deyil. Əksinə, yeni servis modeli daha peşəkar personal tələb edir. İşçilər banket xidməti ilə yanaşı porsion servis, gündəlik restoran xidməti, katerinq, korporativ tədbirlər və qida təhlükəsizliyi üzrə hazırlanmalıdırlar. Peşəkar kadrların sahədən getməsi sonradan xidmət keyfiyyətinin bərpasını daha çətin və bahalı edə bilər. Həmçinin işçi sayının həddindən artıq azaldılması mətbəx və servis heyətinin yükünü artırır, temperatur rejimi, gigiyena, allergenlərin idarə olunması, hazır və çiy məhsulların ayrılması kimi proseslərdə səhv ehtimalını yüksəldir. Yoxlanılmamış və mənşəyi bəlli olmayan ucuz məhsula üstünlük verilməsi isə birbaşa qida təhlükəsizliyi riskidir. Qənaət qida təhlükəsizliyi, təmizlik və zəruri işçi sayı hesabına deyil, israfın azaldılması hesabına aparılmalıdır".



### "TOYLARIN FORMATINI YENİDƏN DÜŞÜNMƏYİN VAXTI ÇATIB"

Mütəxəssis sonda bildirdi ki, əsas məqsəd toylardan imtina etmək deyil, gəlir mənbələrini şaxələndirməkdir: "Korporativ tədbirlər, işgüzar səhər yeməkləri, təlimlər, konfranslar, sərgilər, təqdimatlar, kiçik ailə məclisləri, səyyar katerinq, kulinariya ustad dərsləri və turistlər üçün milli mətbəx proqramları perspektivli istiqamətlərdir. Lakin hər böyük zal avtomatik olaraq konfrans məkanına çevrilə bilməz. Bunun üçün uyğun akustika, dayanıqlı internet, audiovizual avadanlıq, gün işığı, kiçik iş otaqları, parklanma və peşəkar satış komandası tələb olunur. Qastroturizm də sadəcə milli yeməkləri menyuya əlavə etmək deyil; məhsulun mənşəyi, yerli kulinariya ənənəsi, təqdimat, hekayələndirmə, dequstasiya və turizm şirkətləri ilə satış əlaqələri vahid məhsula çevrilməlidir. Ümumilikdə, Azərbaycan toylarının formatını yenidən düşünməyin vaxtı çatıb. Biz ənənələrimizi qorumaqla yanaşı, əsassız xərcləri, qida israfını və nümayiş xarakterli rəqabəti azaltmalıyıq. Şadlıq saraylarının gələcəyini daha böyük zal və daha bahalı menyu deyil, çevik infrastruktur, peşəkar personal, yüksək servis, təhlükəsiz qida və şəffaf qiymət siyasəti müəyyən edəcək. Ənənə qalmalıdır, israf yox".

# SOCAR MALİYYƏ DAYANIQLILIĞINI GÜCLƏNDİRİB




Bu göstəricilər 2025-ci ildə SOCAR-ın əməliyyat səmərəliliyinin yüksəlməsi ilə yanaşı, maliyyə dayanıqlılığının gücləndirilməsi və uzunmüddətli inkişaf üçün biznes portfelinin genişləndirilməsi istiqamətində fəaliyyətini uğurla davam etdirdiyini göstərir.

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) qlobal enerji bazarlarında qiymət dəyişkənliyi, geosiyasi gərginlik və iqtisadi qeyri-müəyyənlik fonunda 2025-ci ili yüksək maliyyə göstəriciləri ilə başa vurub. "Report" xəbər verir ki, şirkət il ərzində əməliyyat səmərəliliyini artıraraq maliyyə göstəricilərində əhəmiyyətli irəliləyişə nail olub.

### MƏNFƏƏT GÖSTƏRİCİLƏRİ YÜKSƏLİB

2025-ci ilin maliyyə nəticələrində əsas diqqətçəkən məqam mənfəət göstəricilərinin əhəmiyyətli dərəcədə yüksəlməsidir. Gəlirlərin 1,9% artmasına baxmayaraq, ümumi mənfəətin 70,5%, əməliyyat mənfəətinin 80,1%, EBITDA-nın isə 26% yüksəlməsi gəlirlilik və əməliyyat səmərəliliyi baxımından güclü nəticələri əks etdirir.

Eyni zamanda, aktivlərin və kapitalın artması, uzunmüddətli öhdəliklərin isə azalması 2025-ci ilin nəticələrini yalnız mənfəətlilik baxımından deyil, balans göstəriciləri baxımından da fərqləndirir. Bu dinamika SOCAR-ın cari fəaliyyətini uğurla davam etdirməklə yanaşı, uzunmüddətli inkişaf və investisiya imkanlarını dəstəkləyən maliyyə bazasını qoruduğunu göstərir. Beləliklə, 2025-ci ilin nəticələri SOCAR üçün yalnız maliyyə göstəricilərində artım ili deyil, eyni zamanda əməliyyat səmərəliliyinin yüksəldilməsi, maliyyə dayanıqlılığının gücləndirilməsi və beynəlxalq biznes portfelinin genişləndirilməsi ilə xarakterizə olunan dövr olub.



### GƏLİRLƏR DƏ ARTIB

2025-ci ildə SOCAR-ın gəlirləri 2024-cü illə müqayisədə 1,9% artaraq 84,7 milyard manatdan 86,3 milyard manata yüksəlib. Ümumi mənfəət 70,5% artaraq 7,39 milyard manatdan 12,61 milyard manata çatıb. Gəlirlərin 1,9% artdığı dövrdə mənfəətin bu səviyyədə yüksəlməsi xərclərin optimallaşdırılması və daha səmərəli əməliyyat fəaliyyətinin maliyyə nəticələrinə müsbət təsirini əks etdirir.

Əməliyyat mənfəəti 80,1% artıb. Bu dinamika şirkətin əsas fəaliyyət istiqamətlərində əməliyyat səmərəliliyinin və gəlirliliyin yüksəlməsini əks etdirir. Faizlər, vergilər və amortizasiyadan əvvəl mənfəət (EBITDA) 26% artaraq 10,9 milyard manata çatıb.

SOCAR 2025-ci ili təqribən 3 milyard manat xalis mənfəətlə başa vurub. Ümumi mənfəət, əməliyyat mənfəəti və EBITDA üzrə müşahidə olunan dinamika şirkətin maliyyə nəticələrinin yalnız gəlirləartması hesabına deyil, həm də biznes dayanıqlılığının gücləndirilməsi, müəssisələrin inteqrasiyalı fəaliyyəti, idarəetmənin təkmilləşdirilməsi, texniki və kommersiya əməliyyatlarının səmərəliliyinin artırılması, maliyyə resurslarının daha rentabelli idarə olunması, innovativ həllər və rəqəmsal enerji texnologiyalarının tətbiqi hesabına formalaşdığını göstərir.

## ÜMUMİ AKTİVLƏR 96,85 MİLYARD MANATA YÜKSƏLİB

SOCAR-ın ümumi aktivləri 2025-ci ildə 2,3% və ya 2,15 milyard manat artaraq 96,85 milyard manata yüksəlib. Cari aktivlər 7,4% və yaxud 2,11 milyard manat artaraq 30,56 milyard manata çatıb. Şirkətin ümumi aktivləri ümumi öhdəliklərini 49,93 milyard manat üstələyib. Uzunmüddətli öhdəliklər 24,2 milyard manatdan 18,7 milyard manata enib. Təxminən 5,5 milyard manatlıq azalma şirkətin uzunmüddətli maliyyə yükünün azalmasına və maliyyə mövqeyinin möhkəmlənməsinə töhfə verib. Cəmi kapital 2025-ci ildə 2,6% artıb. 2021-2025-ci illər ərzində isə SOCAR-ın cəmi kapitalında 2,2 dəfə artım qeydə alınıb. Aktivlərin və kapitalın artması ilə yanaşı, uzunmüddətli öhdəliklərin azalması SOCAR-ın maliyyə dayanıqlılığını dəstəkləyən əsas göstəricilər sırasındadır.

## İNVESTİSİYA FƏALİYYƏTİ DƏ DAVAM ETDİRİLİB

2025-ci ildə SOCAR maliyyə nəticələrini yaxşılaşdırmaqla yanaşı, uzunmüddətli inkişaf strategiyasına uyğun olaraq investisiya fəaliyyətini də davam etdirib. İl ərzində şirkət enerji dəyər zəncirinin müxtəlif istiqamətlərində mövqelərini gücləndirməyə, beynəlxalq aktivlər portfelini şaxələndirməyə və yeni bazarlarda iştirakını genişləndirməyə yönəlmiş bir sıra strateji addımlar atıb. "Bahar" və "Qum-Dəniz" yataqlarında 80% iştirak payı əldə edilməsi "SOCAR-ın ölkə daxilində hasilat aktivi portfelinin genişləndirilməsi istiqamətində mühüm addımlardan biri olub. İsrailin Aralıq dənizi hövzəsində yerləşən "Tamar" qaz yatağında 10% effektiv iştirak payının əldə edilməsi şirkətin beynəlxalq "upstream" portfelinin və yeni coğrafiyalarda iştirakının genişlənməsinə xidmət edib. Rəqəmsal infrastruktur və neft-kimya sahələrinə strateji investisiyalar biznesin texnoloji imkanlarının və uzunmüddətli rəqabət qabiliyyətinin artırılmasına yönəlib. Qaz ixracının və beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi SOCAR-ın regional və beynəlxalq enerji bazarlarındakı mövqeyinin möhkəmləndirilməsini və gəlirlilik səviyyəsinin yüksəldilməsini dəstəkləyib.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1113
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# POLİKLİNİKALAR BİRLƏŞDİRİLİR, NARAHATLIQ ARTIR

Səhiyyə sistemində daha bir yeniliyə hazırlıq gedir. Paytaxtda fəaliyyət göstərən poliklinikaların birləşdirilməsi nəzərdə tutulur. Dövlət tibb müəssisələrində onsuz da pasiyent sıxlığının yüksək olduğu bir vaxtda atılacaq bu addım suallar doğurur.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




## POLİKLİNİKALARIN BİRLƏŞDİRİLMƏSİ İXTİSARLARA DA SƏBƏB OLA BİLƏR

Bakıda 9, 21 və 27 saylı poliklinikaların birləşdirilərək vahid idarəetmə modeli əsasında fəaliyyət göstərməsi planlaşdırılır. TƏBİB bu addımı inzibati funksiyaların optimallaşdırılması və resurslardan daha səmərəli istifadə ilə əsaslandırır. Lakin hamının cavab axtardığı əsas sual budur: dövlət tibb müəssisələrində onsuz da uzun növbələrin və pasiyent sıxlığının yüksək olduğu bir vaxtda üç poliklinikanın birləşdirilməsi xidmətlərin əlçatanlığına və keyfiyyətinə necə təsir edəcək?

### "POLİKLİNİKALARIN BİRLƏŞDİRİLMƏSİ PASİYENTLƏRİN XEYRİNƏ OLMAYACAQ"

Tibb elmləri üzrə fəlsəfə doktoru Şəmsiyyə Namazova hesab edir ki, poliklinikaların birləşdirilməsi pasiyentlərin xeyrinə olmayacaq. Onun sözlərinə görə, belə bir dəyişiklik həm müayinənin keyfiyyətinə, həm də həkimlərin iş yükünə mənfi təsir göstərə bilər: "Sağlamlıq, müayinənin dəqiqliyi baxımından faydalı olmayacaq. İcbari tibbi sığortanın tətbiqindən sonra tibb müəssisələrində yük artıb. Hər bir həkimin və laboratoriyanın xəstə qəbulu ilə bağlı limiti var. Hər pasiyentə 10-15 dəqiqə vaxt sərf olunması qeyd edilir. Amma elə pasiyentlər var ki, onlarla 30-40 dəqiqə söhbət edirsən. Xəstə robot deyil, biz onları diqqətlə dinləməliyik. Əgər pasiyent yüksək səviyyəli müalicə almaq istəyirsə, həkim də diqqətini ona cəlb edir. Çöldəki növbə isə gözləmir: biri qapını döyür, biri deyir işə gecikirəm, biri deyir məktəbə uşaq aparıram və s. Həkim də tələsir və diqqəti dağılır. Bu, marketdən mal almaq deyil. Mən həkimi də qınamıram. Çünki onu çöldə 30-35 xəstə gözləyir. Təəssüf ki, növbəli sistemi hələ də qaydaya sala bilməyiblər".


Şəmsiyyə Namazova

Ş.Namazova bildirir ki, poliklinikalar hər bir yaşayış ərazisində əhalinin müraciət edə biləcəyi tibb müəssisələridir və ətrafdakı insanlar da həmin müəssisələrə gedə bilirlər: "Poliklinikalar birləşəndə isə digər ərazidə yaşayan insanlar məcbur olub uzağa getməli olacaqlar. Müraciət edənlərin sayı üç dəfə arta bilər. Həkimlərin bu yükü qarşılaması fiziki baxımdan mümkün deyil. Keyfiyyətli, peşəkar xəstə müayinəsindən danışırıqsa, bu cür onu reallaşdırmaq mümkün olmayacaq. Bu, konveyer üsulu ilə müayinə olacaq və xaos yaradacaq. Elə insan var ki, ürəyi xəstədir, təngnəfəsliyi var, ayağı ağrıyır, çəliklə gəzir və s. Onlar həmin ərazidən digər əraziyə necə gedəcəklər?"

Həkimin sözlərinə görə, poliklinikaların tutumu da bu qədər insanı qəbul edə bilməyəcək: "Yeni Klinika" kimi şəraitli bir yer olacaqsa, ona söz yoxdur. Amma dövlət poliklinikalarının şəraitini hamımız bilirik. Dəhlizdə nə qədər adam gözləyə bilər? Həm müalicənin effektivliyi baxımından, həm də fiziki yük baxımından bu, ağlasığmaz bir işdir. Lap tutaq ki, növbəli sistem oldu. Saat 2-dən sonra işdə olan həkimin qəbuluna gələn problemli xəstə necə ac qala bilər? Tutaq ki, qalxanvari vəzidə problemi olan xəstə növbəli sistemə düşüb. O, saat 2-yə qədər ac qalsa belə, ondan analiz götürülə bilməz. Bu analiz saat 11-ə qədər verilməlidir. Elə analizlər var ki, gündüz saat 11-ə qədər verilməlidir".

Ş.Namzaovanın fikrincə, poliklinikaların birləşdirilməsi ixtisarlara da səbəb ola bilər: "Hər tərəfdən yanaşanda maneə ilə rastlaşırıq. Bu, bir tərəfdən pasiyentlərin həkim qəbuluna düşmə ilə bağlı vaxtını alacaq, keyfiyyətli müayinə olmayacaq, digər tərəfdən həkimlər də çox yüklənəcəklər. Həkimlərin ümumiyyətlə düşünməyə vaxtları qalmayacaq".

### "TİBBİ PERSONALIN SAYI AZALDILMIRSA, XİDMƏTƏ ÇIXIŞDA PROBLEM OLMAMALIDIR"

Pasiyent Təşkilatları İttifaqının sədri Ayaz Hüseynov istənilən struktur dəyişikliyinin ilkin mərhələdə adaptasiya tələb etdiyini bildirir: "Bizim üçün əsas məsələ odur ki, bu inteqrasiya birbaşa xidmət keyfiyyətinin yüksəlməsində özünü göstərsin. Əgər binaların fəaliyyəti saxlanılırsa və fiziki məsafə dəyişmirsə, vətəndaş üçün mənfi hal yaranmamalıdır".

Pasiyentlərin gözləmə müddətinin uzanması və xidmətə çıxışın çətinləşməsi riskinə gəlincə, A.Hüseynov hesab edir ki, belə bir riskin yaranmaması üçün proses düzgün idarə olunmalıdır: "Tibbi personalın sayı azaldılmırsa, xidmətə çıxışda problem olmamalıdır. Əksinə, üç poliklinikanın imkanlarının (məsələn, laboratoriya və ya diaqnostik avadanlıqların) birgə istifadəsi pasiyentin lazımi müayinədən daha tez keçməsinə şərait yarada bilər. TƏBİB-in də bəyan etdiyi kimi, optimallaşdırma tibbi heyətə toxunmur, yalnız təkrarlanan inzibati funksiyaları əhatə edir. Bizim də gözləntimiz odur ki, mərkəzləşmə həkimlərin üzərindəki qeyri-tibbi və bürokratik yükü azaldacaq. Həkim inzibati işlərə az vaxt sərf edərək bütün diqqətini pasiyentə ayıra biləcək. Bu da nəticə etibarı ilə həm həkimin iş şəraitinin yaxşılaşmasına, həm də müayinənin keyfiyyətinin artırılmasına zəmin yaradacaq".

Təşkilat rəhbərinin sözlərinə görə, səhiyyənin təşkilinin yüksək səviyyədə olması üçün pasiyentin qarşılaşa biləcəyi çətinliklər minimuma endirilməlidir: "Vacib addım səhiyyənin tam rəqəmsallaşması və davamlı maarifləndirmədir. Ən əsası, İctimai Monitorinq Qrupu yaradılmalıdır. Keçid dövründə vətəndaş şikayətlərini operativ həll etmək üçün Pasiyent Təşkilatı və TƏBİB nümayəndələrindən ibarət birgə işçi qrup təşkil olunmalıdır. Bunlar səhiyyənin idarə edilməsində yaranan çətinliklərin operativ və keyfiyyətli şəkildə həll olunmasına gətirib çıxaracaq".

### "MƏRKƏZLƏŞMİŞ MÜƏSSİSƏ OLSA, XƏSTƏ, YƏQİN Kİ, VAXT İTİRMƏZ"

Həkim-terapevt Məlahət Abbasovanın da fikrincə, bu proses pasiyentləri nizamlaya bilər: "Ayrı-ayrı yerlərə paylaşmaqdansa, müraciətləri bir nöqtədə nizamlanar. Bəzən olur ki, hansısa bir tibb müəssisəsində xəstənin istədiyi prosedur icra olunmur. Pasiyent oradan çıxıb, yola pul xərcləməyə və başqa tibb müəssisəsinə getməyə məcburdur. Amma mərkəzləşmiş müəssisə olsa, xəstə, yəqin ki, vaxt itirməz və müayinəsi üçün lazım olan prosedurlar bir mərkəzdə daha əlçatan olar".


Ayaz Hüseynov

# ON BİR AYLIQ SINAĞIN İLK İKİ HƏFTƏSİ

Bakı metrosunda xətlərin ayrılmasından sonra ilk günlərin mənzərəsi sərnişin axınında ciddi dəyişiklik olduğunu göstərir. Alternativ avtobus marşrutları artırılsa da, qarşıdakı 10 ayın paytaxtın nəqliyyat sistemi üçün əsas sınaq dövrü olacağı gözlənilir.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Bakı Metropolitenində tətbiq olunan yeni hərəkət sxeminin və “28 May”-“Nizami” sahəsində qatarların hərəkətinin dayandırılmasından artıq 10 gündən çox vaxt keçir. Bu müddət ərzində sərnişin daşınmasını təmin etmək və yaranan boşluğu doldurmaq məqsədilə yeni ekspres avtobus marşrutları fəaliyyətə başlayıb, bir sıra mövcud xətlər isə gücləndirilib. Bəs sərnişinlərin yeni sxemə uyğunlaşma prosesi necə gedir və hazırda sistemdə hansı boşluqlar müşahidə olunur? Yaradılan alternativ nəqliyyat imkanları metroda yaranan sərnişin yükünü tam kompensasiya edə bilirmi?

**“ARTIQ EKSPRES MARŞRUTLARDA DƏYİŞİKLİKLƏRƏ BAŞLANILIB”**

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirildi ki, alternativ daşımaların təmin edilməsi məqsədilə altı ekspres marşrut təşkil edilib: “Eyni zamanda, 20 müntəzəm marşrut üzrə avtobusların sayı artırılıb ki, bu da avtobuslararası intervalın azaldılmasını və sərnişinlər üçün əlçatanlığın artırılmasını təmin edib. İlk 10 gün ərzində sərnişin tələbatının öyrənilməsi və daxil olan vətəndaş müraciətləri nəzərə alınaraq, ekspres marşrutlarda dəyişikliklərə başlanılıb. Avqustun 24-dən M6 nömrəli ekspres marşrutunun hərəkət sxemi dəyişdirilib. Əvvəllər “Elmlər Akademiyası” və “Gənclik” stansiyaları arasında fəaliyyət göstərən marşrut artıq “Koroğlu”, “Gənclik”, “Nizami” və “Elmlər Akademiyası” stansiyalarını əlaqələndirir. Avtobuslar “Nizami” metrostansiyasından keçərək burada aralıq dayanacaq edəcək, son dayanacaq isə “Koroğlu” stansiyası olacaq. Bundan əlavə, “Elmlər Akademiyası” və “28 May” stansiyaları arasında fəaliyyət göstərən M1 nömrəli ekspres marşrutunda da yenilik tətbiq edilir. Sərnişinlərin avtobuslara minməsini sürətləndirmək və gözləmə müddətini azaltmaq məqsədilə nəqliyyat vasitələrinə ikinci validatorun quraşdırılmasına başlanılıb. Bununla sərnişinlərin eyni vaxtda avtobusun həm ön, həm də orta qapılarından salona daxil olması mümkün olacaq”.

## “Metroda qatarların hərəkət intervalı azaldılıb”

“Bakı Metropoliteni” QSC-dən bildirildi ki, həm tikinti, həm də mövcud xətlər üzrə sərnişindaşıma sahəsində işlər planlaşdırılmış qaydada davam edir: “Avqustun 15-dək Yaşıl və Qırmızı xətlərin müstəqil sahələrində hərəkət intervalı gur saatlarda 3:30 saniyə təşkil edirdi. Qırmızı xətt üzrə hərəkətin təşkilində tam müstəqil fəaliyyət mümkün olduğundan, artıq “İçərişəhər-Əhmədli” istiqamətində interval 1 dəqiqə azaldılaraq, 2:30 saniyə təmin edilib. Həmçinin avqustun 15-dək hər iki xəttin müştərək “Həzi Aslanov-28 May” sahəsində fərqli xətlər üzrə hərəkət edən sərnişinlərin stansiyalara daxil olan qatarlara növbə ilə minməsi aradan qalxdığından sərnişin axınının daha nizamlı təşkilinə şərait yaranıb”.

**“SƏRNİŞİNLƏR YENİ SXEMƏ UYĞUNLAŞIRLAR”**

Qurumdan bildirildi ki, 2025-ci və 2026-cı illərin avqust ayı üzrə müqayisəli statistik daşıma təhlillərinə əsasən, sərnişin gedişlərində 21 faiz aşağı nəticə qeydə alınıb: “Bu isə xətlərin ayrılması layihəsinin təsiri də nəzərə alınmaqla hazırkı dövrdə müşahidə olunan maksimal azalma hesab edilə bilər. Son günlərdə sərnişinlərin yeni hərəkət sxeminə uyğunlaşması ilə bağlı müsbət dinamika müşahidə olunur. Ümumilikdə, ilk günlərdə bir sıra sərnişinlərdə müşahidə olunan çaşqınlıq, əsasən, azalıb. Yaxın dövr üçün əsas hədəf yeni tədris mövsümünə qədər sərnişinlərin daha çox məlumatlı olması, mümkün texniki optimallaşdırma tədbirlərinin diqqət mərkəzində saxlanılması və operativliyin təmin edilməsidir”.




Tikinti işləri ilə bağlı isə bildirildi ki, proses müəyyən edilmiş qrafik üzrə mobilizasiya, xətlərin ayrıldığı sahədə infrastrukturun ləğv edilməsi də daxil edilməklə planlı şəkildə davam etdirilir. Əsas hədəf layihəni nəzərdə tutulan 11 aylıq müddətdə başa çatdırmaqdır.

**“KOROĞLU-DƏRNƏGÜL” DƏMİR YOLUNUN TİKİNTİSİ SÜRƏTLƏNDİRİLMƏLİDİR”**

Nəqliyyat məsələləri üzrə ekspert Rauf Ağamirzəyevin sözlərinə görə, ilk 10 günün təcrübəsi sərnişin axınının real mənzərəsini görmək və mövcud nəqliyyat həllərində hansı dəyişikliklərə ehtiyac olduğunu müəyyənləşdirmək baxımından mühüm mərhələdir. Yaxın gələcəkdə yeni xətlərin açılması da mümkündür: “Məsələn, “Neftçilər” metrostansiyasından “Elmlər Akademiyası”na birbaşa xəttin açılması daha məqsədəuyğun olardı və zamanında, pandemiya dövründə də bu növ M indeksli marşrutlar mövcud idi. Digər tərəfdən, yaranacaq təsirlər qaçılmazdır, çünki metronun daşıdığı sərnişin yükünü avtobusların tam gücü ilə daşıması qeyri-mümkündür. Bu səbəbdən xəttə daha çox avtobusun buraxılmasına və ayrılmış avtobus şəbəkəsinin genişləndirilməsinə ehtiyac var. Nəqliyyat şəbəkəsinə düşən təzyiqi minimuma endirmək üçün təxirə salınmadan “Koroğlu” ilə “Dərnəgül” stansiyalarını əlaqələndirən dəmir yolunun tikinti layihəsi sürətləndirilməlidir. Dövlət proqramında da yer alan təqribən 2 kilometrlik bu yolun artıq 50 faizi tikilib və onu 1-2 ay ərzində sürətlə istifadəyə verib sərnişin axınının parçalanmasına zəmin yaratmaq olar. Şəhərin mərkəzində piyada infrastrukturunun abadlaşdırılması, qısa marşrutları formalaşdıran zebralı və işıqforlu keçidlərin sayının artırılması da vacibdir”.

**“METRODA İŞLƏR 11 AYDAN TEZ BAŞA ÇATA BİLƏR”**

R.Ağamirzəyevin fikrincə, layihənin icrasının maksimum 11 ay çəkəcəyi bildirilsə də, işlərin daha tez bitməsi də mümkündür. Lakin növbəti 10 ay müddətində ciddi təsirlər gözləniləndir: “Bu müddətdə təhsil sistemində məsafəli və ya hibrid variantlara keçilməsi də mütləq dəyərləndirilməlidir. Pandemiya dövründə məsafədən iş və tədrisin tətbiqi yükü necə azaltmışdısa, sırf bu çətin dövrü dəyərləndirib mümkün variantları tətbiq etmək lazımdır ki, nəqliyyat təsirləri minimum olsun. Əlimizdə olan avtobus imkanlarından maksimum istifadə etməklə və layihələri sürətləndirməklə bu keçid dövrünü yüngülləşdirə bilərik”.

# HƏR ADDIM TƏHLÜKƏ, HƏR MƏRTƏBƏ RİSK

İstismar müddətini başa vurmuş köhnə yaşayış binalarında lift problemi daha da kəskinləşib. İdarəetmə sistemindəki boşluqlar problemin həllini yubadır. Məsələ millət vəkillərinin də diqqətindədir.



SEVİNC ABBASOVA

Bakıda köhnə liftlərin yaratdığı təhlükəsizlik problemi yenidən gündəmə gəlib. Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov paytaxtdakı kooperativ yaşayış binalarında quraşdırılmış yüzlərlə liftin istismar müddətinin başa çatdığını diqqətə çatdıraraq bu istiqamətdə dövlət dəstəyinin vacibliyini vurğulayıb. Onun sözlərinə görə, 35–40 il əvvəl tikilmiş bu binalarda quraşdırılan və hazırda köhnəlmiş vəziyyətdə olan təxminən 1000 liftin mərhələli şəkildə yenilənməsi üçün hökumət tərəfindən xüsusi proqram çərçivəsində vəsait ayrılması zəruridir.

### KOOPERATİV LİFTLƏRƏ XİDMƏT YOXDUR

Araşdırmalara görə, paytaxtda bir çox kooperativ binalarda liftlərin yaşı artıq 40 ilə yaxınlaşır. Bu isə o deməkdir ki, həmin avadanlıqlar normativ istismar müddətini çoxdan başa vurub.

Bakı şəhər İcra Hakimiyyətinin "Lifttəmir" İstehsalat Birliyindən "Kaspi"nin sorğusuna cavab olaraq qeyd edilib ki, sözügedən kooperativ binalarda yerləşən liftlər dövlət mənzil fonduna aid deyil. Ona görə də "Lifttəmir" İstehsalat Birliyi tərəfindən onların dəyişdirilməsi və ya xidməti həyata keçirilmir.

Ekspertlər isə hesab edirlər ki, köhnəlmiş liftlər təkcə narahatlıq yaratmır, həm də təhlükəsizlik baxımından ciddi risklər daşıyır. Mexaniki hissələrin aşınması, elektrik sistemindəki nasazlıqlar və texniki xidmətin çətinləşməsi qəza ehtimalını artırır. Bu baxımdan köhnə liftlərin mərhələli şəkildə yenilənməsi həm sakinlərin təhlükəsizliyi, həm də şəhər infrastrukturunun yenilənməsi baxımından vacib hesab olunur.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc bildirir ki, hazırda paytaxtda bir sıra yaşayış binaları özünü maliyyələşdirmə prinsipi əsasında idarə olunur. Onun sözlərinə görə, belə binalarda liftlərin yenilənməsi birbaşa bina sakinlərinin və ya həmin binaları idarə edən mənzil-tikinti kooperativlərinin (MTK) məsuliyyət dairəsinə daxildir. Bununla belə, ekspert vurğulayır ki, məsələnin yalnız idarəetmə və maliyyə öhdəlikləri prizmasından qiymətləndirilməsi düzgün yanaşma olmaz. Çünki söhbət hər gün həmin liftlərdən istifadə edən minlərlə insanın təhlükəsizliyindən gedir.

## "BU SAHƏDƏ GENİŞ MONİTORİNQLƏR APARILMALIDIR"

V.Oruc əlavə edir ki, ölkədə lift təsərrüfatı ilə bağlı müəyyən idarəetmə strukturları mövcud olsa da, bəzi hallarda nəzarət mexanizmləri kifayət qədər effektiv işləmir və sistem daha çox formal xarakter daşıyır. Onun fikrincə, mövcud vəziyyətin real mənzərəsini müəyyənləşdirmək üçün aidiyyəti dövlət qurumları tərəfindən xüsusi komissiya yaradılmalı və geniş monitorinqlər aparılmalıdır.




### BİR LİFT ORTA HESABLA 20-30 MİN MANATA BAŞA GƏLİR

V.Oruc deyir ki, hazırda bazarda liftlərin qiyməti istehsal ölkəsindən və texniki xüsusiyyətlərindən asılı olaraq dəyişir. Əgər söhbət təxminən 1000 liftin dəyişdirilməsindən gedirsə, bir liftin alınması və quraşdırılması orta hesabla 20-30 min manat civarında qiymətləndirilir. Bu məbləğ liftin Rusiya, Çin və ya Avropa istehsalı olmasından, həmçinin onun tutumundan və digər texniki göstəricilərindən asılı olaraq dəyişə bilər.

Ekspert hesab edir ki, yalnız sistemli və mərhələli yanaşma nəticəsində problemin effektiv həllinə nail olmaq mümkündür. Onun fikrincə, məsələ həm təhlükəsizlik, həm də sosial məsuliyyət baxımından son dərəcə aktualdır və bu səbəbdən aidiyyəti icra strukturlarının diqqət mərkəzində olmalıdır. Buna görə də yaxın vaxtlarda bu istiqamətdə konkret qərarların qəbul ediləcəyi və problemin həlli üçün müvafiq addımların atılacağı gözlənilir.

## ÖMRÜNÜ BAŞA VURMUŞ KÖHNƏ BİNALAR SAHİBSİZ QALIB

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə vurğulayır ki, hazırda Bakıda təxminən 11 min istismar müddətini başa vurmuş köhnə çoxmənzilli yaşayış binası mövcuddur. Onun sözlərinə görə, lift problemlərinin yaranmasının əsas səbəblərindən biri əvvəllər JEK-lərin binalara nəzarət etməsi və xidmət göstərməsi, sonradan isə bu səlahiyyətlərin dayandırılmasıdır. Nəticədə köhnə binalar sahibsiz qalıb və liftlərin istismarı yalnız sakinlərin üzərinə düşüb.

Ekspert bildirir ki, yeni tikililərdə liftlərin istismarı daha sistemli həyata keçirilir: "Azərbaycan qanunvericiliyinə görə, çoxmənzilli yaşayış binalarında sakinlər öz idarəetmə sistemlərini qurmalıdırlar. Yeni binalarda sakinlər tərəfindən qurulan idarəetmə sistemi kommunal ödənişləri toplayaraq binaların saxlanılmasını və liftlərin texniki xidmətini təmin edir. Lakin köhnə binalarda müxtəlif idarəetmə strukturları mövcud olsa da, onların fəaliyyəti qənaətbəxş deyil və binalar baxımsız qalır. Bu, problemlərin həllini çətinləşdirir və gələcəkdə xərclərin artmasına səbəb olur".

### İDARƏETMƏDƏ VAHİD QURUMA EHTİYAC VAR

E.Fərzəliyev hesab edir ki, Azərbaycanda yaşayış fondunun idarə olunması ilə bağlı vahid qurumun yaradılması vacibdir. Bu qurum vasitəsilə yığılan kommunal pullar səmərəli idarə olunar, gələcəkdə lazım olan xərclər planlı şəkildə qarşılanar və dövlət büdcəsinə əlavə yük düşməz.




Ekspert onu da deyir ki, dövlət büdcəsindən pul ayrılması indiki şəraitdə uzunmüddətli nəticə verməyəcək: "Hər dəfə lift dəyişdirildikdən sonra digər avadanlıqlar da sıradan çıxacaq və yenə maliyyə ehtiyacı yaranacaq. Vahid idarəetmə qurumu vasitəsilə yığılan pulların mərkəzləşdirilmiş idarəsi isə daha effektiv nəticə təmin edə bilər.

E.Fərzəliyevin sözlərinə görə, köhnə liftlərin dəyişdirilməsi mərhələli şəkildə aparılmalıdır: "Bütün liftləri birdəfəlik dəyişdirmək fiziki olaraq mümkün deyil və buna işçi qüvvəsi yetməz".

# AUTİZMLİ UŞAQLARIN SAYI NİYƏ ARTIR?

Son beş ildə Azərbaycanda autizm diaqnozu qoyulan uşaqların sayı iki dəfədən çox artsa da, mütəxəssislər bunu autizmin sürətlə yayılması ilə deyil, erkən diaqnostika imkanlarının genişlənməsi və valideynlərin məlumatlılığının artması ilə əlaqələndirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bir neçə il əvvəl cəmiyyətdə nadir rast gəlinən diaqnoz kimi qəbul edilən autizm bu gün getdikcə daha çox ailənin qarşılaşdığı reallığa çevrilib. Hər il daha çox uşağa autizm spektr pozuntusu diaqnozu qoyulması istər valideynlər, istərsə də mütəxəssislər arasında ciddi müzakirə mövzusuna çevrilib. Bəs bunun səbəbi nədir? Rəsmi statistika göstərir ki, Azərbaycanda son illərdə autizm spektr pozuntusu diaqnozu qoyulan uşaqların sayı əhəmiyyətli dərəcədə artıb. Dövlət Statistika Komitəsinin təqdim etdiyi rəqəmlərə görə, 2025-ci ildə uşaq autizmi diaqnozu ilə qeydiyyatda olanların sayı 3 533 nəfər olub. Onlardan 2 765-i oğlan, 768-i isə qızdır. Yaş bölgüsünə əsasən, autizm diaqnozu qoyulan uşaqların 2 726 nəfəri 0-13 yaş, 749 nəfəri 14-17 yaş, 58 nəfəri isə 18 yaş və yuxarı qrupuna daxildir. Bundan əlavə, 123 nəfər atipik autizm diaqnozu ilə qeydiyyata alınıb ki, onların da 104-ü oğlan, 19-u qızdır. Rəqəmlər göstərir ki, son beş ildə artım daha da nəzərə çarpır. Belə ki, 2021-ci ildə 1 624 uşaq autizm diaqnozu ilə qeydiyyatda olduğu halda, 2025-ci ildə bu göstərici 3 533-ə yüksəlib. Yəni cəmi beş il ərzində diaqnoz qoyulan uşaqların sayı iki dəfədən çox artıb. Statistikaya əsasən, 2021–2025-ci illər ərzində ölkədə ümumilikdə 13 min 676 nəfərə autizm spektr pozuntusu diaqnozu qoyulub. Oğlan uşaqları arasında diaqnoz qoyulanların sayı 1 284 nəfərdən 2 765 nəfərə, qızlar arasında isə 340 nəfərdən 768 nəfərə yüksəlib.

**“100 FAİZ SÜBUT OLUNMUŞ KONKRET BİR SƏBƏB YOXDUR”**

Neonatoloq-pediatr Aida Əliyevanın sözlərinə görə, autizm psixi və ya ruhi xəstəlik deyil. Bu, sadəcə xüsusi bir beyin inkişafı formasıdır: “Yəni uşaq dünyanı və hadisələri digərlərindən fərqli qəbul edir, fərqli düşünür. Yaranma səbəblərinə gəldikdə, 100 faiz sübut olunmuş konkret bir səbəb yoxdur. Mütəxəssislərin ehtimal etdiyi bəzi amillər var. Məsələn, 60 faiz hallarda genetik faktorların rol oynadığı düşünülür. Valideynlərin, xüsusən atanın yaşlı olması, ananın hamiləlik dövründə müxtəlif infeksiyalar keçirməsi, uşağın vaxtından tez və ya az çəki ilə doğulması, eləcə də reanimasiyada qalması risk faktorları hesab olunur. Cəmiyyətdə autizmin yaranması ilə bağlı bir sıra yanlış təsəvvürlər də mövcuddur. Mobil telefonlardan istifadə, peyvəndlər, süni qidalar, ana südünün olmaması və ya uşağın düzgün tərbiyə edilməməsinin autizm yaratdığına dair fikirlərin heç biri elmi əsaslara söykənmir”.



Tərənə Möhsünova

## “Autizm əvvəllər də olub, lakin bilməmişik”

A.Əliyevanın fikrincə, autizm diaqnozu əvvəlki illərlə müqayisədə daha çox qoyulur. Lakin bu, autizmli uşaqların sayının mütləq artması demək deyil. Əsas səbəb diaqnostikanın xeyli inkişaf etməsidir: “Əvvəllər belə uşaqlara diaqnoz qoyulmur, onlar sadəcə “qeyri-adi”, “əsəbi” və ya “xasiyyəti atasına oxşayıb” kimi qiymətləndirilirdi. Autizm öncədən laborator analiz və ya genetik testlə müəyyən edilmir. Diaqnoz yalnız uşağın davranışları, neyropsixoloji və psixi inkişaf dinamikası xüsusi testlər və müşahidələr əsasında qiymətləndirildikdən sonra qoyulur”.

Həkim hesab edir ki, valideynlər uşağın inkişafında ləngimə və ya fərqlilik hiss etdikdə özbaşına nəticə çıxarmamalıdırlar. Uşaq heç bir problemi olmasa belə, 1 yaşa qədər hər ay, daha sonra isə mütəmadi pediatr müayinəsindən keçməlidir: “Xüsusilə 1–3 yaş dövrü çox vacibdir. Pediatr autizm əlamətlərindən şübhələndikdə uşağı psixonevroloq və ya psixiatra yönləndirir və yekun diaqnoz həmin mütəxəssislər tərəfindən qoyulur”.

**“ŞÜBHƏ YARANDIQDA GÖZLƏMƏK DÜZGÜN DEYİL”**

Psixoloq Həmidə Məmmədova isə bildirdi ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünya üzrə orta hesabla hər 100 uşaqdan birində autizm müşahidə olunur. Azərbaycanda dəqiq statistika olmasa da, praktik fəaliyyətimizdə autizm diaqnozu alan uşaqların sayının artdığını görürük”.

H.Məmmədovanın sözlərinə görə, autizmin ilkin əlamətləri arasında göz kontaktının zəif olması və ya ümumiyyətlə olmaması, uşağın öz adına reaksiya verməməsi, nitqin gecikməsi, ünsiyyət qurmaqda çətinlik və təkrarlanan davranışlar diqqəti cəlb edir. Çox vaxt valideynlər əvvəlcə uşağın eşitməsində problem olduğunu düşünərək qulaq müayinəsi etdirirlər. Eşitmə normal olduğu halda əsas səbəbin autizm olduğu müəyyən edilə bilər. Autizmli şəxslərin fərqli xüsusiyyətlərindən biri də başqalarının diqqət yetirmədiyi xırda detalları görə bilmələri və müəyyən sahələrdə yüksək bacarıqlar nümayiş etdirmələridir. Autizmin bəzi əlamətləri 1-1,5 yaşdan hiss oluna bilər, rəsmi diaqnoz isə əksər hallarda 2-3 yaş arasında qoyulur. Şübhə yarandıqda gözləmək düzgün deyil. Uşaq mütləq uşaq psixiatrı və psixoloqu tərəfindən qiymətləndirilməli, ehtiyac olduqda erkən reabilitasiyaya başlanmalıdır”.




Psixoloq deyir ki, autizmli uşaqların sayının artmasının dəqiq səbəbi məlum deyil: “Bir tərəfdən diaqnostikanın inkişafı və valideynlərin məlumatlılığının artması əvvəllər aşkarlanmayan halların üzə çıxmasına səbəb olur. Digər tərəfdən isə autizm hallarının həqiqətən artdığı ehtimalı da araşdırılır”.

**“UŞAQLAR 18 VƏ 24 AYLIQ YAŞLARINDA SKRİNİNQDƏN KEÇİRİLMƏLİDİRLƏR”**

TM Disleksiya Mərkəzinin direktoru, pedaqoq Təranə Möhsünova da son illər autizm diaqnozu alan uşaqların sayında nəzərəçarpacaq artım müşahidə olunduğunu bildirir. Onun sözlərinə görə, autizmin ilk əlamətləri adətən 12-18 aylıq dövrdə görünməyə başlayır: “Bütün uşaqların 18 və 24 aylıq yaşlarında autizm üçün skrininqdən keçirilməsini tövsiyə edir. Əgər uşaq adına çağırıldıqda reaksiya vermirsə, göz təması məhduddursa, nitqi yaşıdlarından geri qalırsa, işarə etmirsə, digər uşaqlarla ünsiyyətə maraq göstərmirsə, eyni hərəkətləri təkrarlayırsa və ya səsə, işığa, toxunuşa qarşı həddindən artıq həssasdırsa, bunlar diqqət tələb edən əlamətlərdir. Lakin tək bir əlamət autizm demək deyil”.



# YAŞASAYDI, 75 YAŞI OLACAQDI







Sentyabrın 3-ü Xalq artisti Yaşar Nurinin 75 illik yubileyidir. Onu sevənlər, həmkarları, dostları yubileyini onsuz qeyd edəcəklər. Sevimli aktyorumuzun sənət yoldaşları onu xatirələri ilə anırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Elə bil dünən idi: redaksiyamıza qonaq gəlmişdi. Ad günü ərəfəsi idi. Əlində gül dəstəsi, üzündə mehriban təbəssümü...

Xalq artisti Yaşar Nuri həmin gün özünəməxsus zarafatından qalmadı, xatirələrini çözdü, suallarımızı cavablandırdı: "Nə vaxt çağırsanız, gələrəm", - deyib getdi...

Sentyabrın 3-ü 75 illik yubileyidir Yaşar Nurinin. Onu sevənlər, həmkarları, dostları yubileyini onsuz qeyd edəcəklər.

Biz də sevimli aktyorumuzu sənət yoldaşlarının xatirələri ilə yada saldıq.

### BU GÜNƏ QƏDƏR DAVAM EDƏN SEVGİ

Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Hacı İsmayılov Yaşar Nurini Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi adlandırır: "Yaşar 70-ci ildə teatra gələn gənclərin arasında ən istedadlılarından biri idi. O, tez bir zamanda bacarığını göstərə bildi. Mən Teatr İnstitutunda oxusam da, Lütfi Məmmədbəyovun Xalq Teatrı ilə əlaqələrimi kəsmirdim. Bir gün o teatra gedəndə Maksim Qorkinin "Həyatın dibində" tamaşasının məşqləri gedirdi. Səhnədəki gənclər arasında balacaboy, gülərüz, bir az da dolu gənc diqqətimi çəkdi. Sonradan onun Yaşar olduğunu öyrəndim. Lütfi müəllim "mənim işim var, sən bunlarla məşq elə" deyib harasa getdi. Mən birinci Yaşarla məşq etdim və ürəyimdə "bu, gələcəkdə Azərbaycan teatrının istedadlı aktyorlarından olacaq", - dedim. Yaşar teatra gələn gündən uğur qazanmağa başladı. Biz onunla tamaşalarda tərəf-müqabil olduq. Tezliklə bu münasibətimiz dostluğa çevrildi. Bir qrim otağında tamaşalara hazırlaşırdıq. Sonradan televiziya tamaşalarında da birgə işlədik".

H.İsmayılov xatırlayır: "Hərdən deyirdim ki, bilirsən sənin üstünlüyün nədir? Sən şirin aktyorsan". Yaşar doğrudan da şirin aktyor idi. Yeri gələndə mahnı oxuyurdu, yeri gələndə məzəli söhbətlər edirdi, güclü yumor hissi vardı".



Hacı İsmayılov



Firəngiz Mütəllimova

### "YAŞAR AKTYOR SƏNƏTİMİZİN TACI İDİ"

Xalq artisti Ramiz Həsənoğlu gözünü açandan Yaşarı sənətdə gördüyünü deyir: "Biz bir-birimizin bioqrafiyasında iştirak etmişik. O, mənim ən maraqlı işlərimdə aktyor kimi çəkilib. Biz həm də ailəvi dost olmuşuq, övladlarımız dostluq ediblər. Yaşar aktyor sənətimizin tacı idi. Təsadüfi deyil ki, mənim əsərlərimdə bir yox, bir neçə rol oynayıb. Hətta "Qonşu qonşu olsa" tamaşasında 11 personajı canlandırıb. Heç kəs deyə bilməzdi ki, Yaşar komik, ya dramatik aktyordur. O, hər şeyi bacarırdı. Amma tamaşaçılar onu komik, yumoristik rolları ilə daha çox sevirdilər. Bir sıra tamaşa və filmlərdə ciddi obrazlar da yaratmışdı. Yaşar heç kəsə bənzəməyən, tayı-bərabəri olmayan bir aktyor idi".

R.Həsənoğlu rejissoru olduğu "Qatarda" tamaşasını xatırlayır: "Ssenarini əlimə alan kimi aktyorları təyin etdim. Qəti şübhəm yox idi ki, Dadaşov rolunu məhz Yaşav r oynaya bilər. Bu, çox ciddi rol idi. Bundan əvvəl də Yaşarın televiziyada uğurlu rolları olub, amma deyərdim ki, onlardan ən uğurlusu "Qatarda"dakı Dadaşovdur. Yadımdadır ki, tamaşanın səhəri günü hamı bir-birini görüb deyirdi: "Həəəəə...". Bu, Yaşardan gələn bir jest idi. İsi Məlikzadənin həyatdan əsərə gətirdiyi Dadaşov obrazını Yaşar öz rolu ilə yenidən həyata qaytardı".

### "ELÇİN-GÜLNAR", "GÜLNAR-ELÇİN" DASTANI

Xalq artisti Firəngiz Mütəllimova xatırlayır: "Yaşar Nurini ilk dəfə institutun 2-3-cü kursunda oxuyanda görmüşəm. Hər dəfə də məni görəndə saxlayıb "Sən Ofeliya Sənaninin qohumusan?" soruşurdu. Ya unudurdu, ya qəsdən sual verirdi, bilmirəm. Sonra təyinatla teatra gəldim. O vaxt fərqli tamaşalarda oynayırdıq, tərəf-müqabil deyildik. Bir gün rəhmətlik Tariyel Vəliyev məni dəhlizdə gördü və "Aslan Qəhrəmanovun "Səni axtarıram" pyesini verəcəm, onu oxu, əsərdə Gülnarın gülüşü var, onu səndə görürəm. Əsər iki nəfərlikdir" dedi. Mən həyəcanla: "O biri ifaçı kimdir?" deyə soruşdum. "Yaşar Nuriyev" deyəndə çox sevindim. O vaxt Yaşar çox populyar idi. Sevindim ki, sənətdə ilk addımlarımı atmağa başladığım bir vaxtda onun kimi aktyorla bir tamaşada oynayacam. Tamaşaya çəkiləndə Yaşarın üzünə baxa bilmirdim, yerə baxırdım. Rejissor hirslənirdi. Yaşar o vaxt mənə çox kömək etdi. Tamaşaçılar da bizi bir-birimizə o qədər yaraşdırdılar ki, sonradan bütün bayram verilişlərində tərəf-müqabil olduq. Hətta mən başqa aktyorla oynayanda o, pis olurdu, o başqası ilə oynayanda - mən..."

F.Mütəllimova deyir ki, Yaşar Nuri ilə bağlı xatirələri çoxdur: "Yaşarın səsi həmişə qulağımdadır. Məni görəndə sanki beş yaşında uşaq olurdu. Mənim üçün çox dəyərli, zirvədə olan aktyor olub. Sevinirəm ki, elə bir aktyorla tərəf-müqabil olmuşam. İndiyə kimi "Elçin-Gülnar", "Gülnar-Elçin" adları beynimə həkk olub. Nə qədər bu həyatda varıq, Yaşar qəlbimizdə və gözümüzün önündədir..."



## "YAŞAR HƏMİŞƏ YAŞARDIR"

"Yaşar Nurinin daim yeri görünür. Hazırda belə aktyorlara ehtiyac var", - deyə Xalq artisti Afaq Bəşirqızı xatırlayır: "Yaşar çox təbii aktyor idi. Təəssüf ki, belə istedadların ömrünü xəstəlik yarıda kəsir. Yaşarın yaratdığı obrazlar təkcə teatr və kino tariximizdə deyil, həmçinin tamaşaçıların yaddaşındadır. Onun adı çəkilən kimi üzlərə təbəssüm qonur. Hamı bir ağızdan "Allah rəhmət eləsin, yeri görünür" deyir. Təəssüf ki, Yaşarın davamçısı olmadı. Amma o, xalqın yaddaşında və mədəniyyət tariximizdə həmişə yaşayacaq. Özünün dediyi kimi: "Yaşar həmişə yaşardır".

### "YORULMAQ BİLMƏDƏN İŞLƏYƏN BİR İNSAN İDİ..."

Xalq artisti Səidə Quliyeva da sənət yoldaşını Azərbaycan mədəniyyəti üçün "milli sərvət" hesab edir: "Yaşar həmişə yadımdadır: oynadığı obrazlar, səhnədə canlandırdığı rollar daim gözümün önündə və ürəyimdədir. Bu, hər bir sənətkara nəsib olan xüsusiyyət deyil ki, həmişə yaddaşlarda qalsın, həmişə sevilsin, adı gələndə üzlərdə gülüş olsun".

S.Quliyeva deyir ki, teatra gəldiyi 1978-ci ildən Yaşar Niri ilə bir səhnədə tərəf-müqabil olub, eyni tamaşalarda rol alıb: "Mən ondan çox şey öyrənmişəm. Yaşar Nuri daim qaynayırdı. Onun sənət fantaziyası həmişə müasir idi. Biz hamımız ondan öyrənirdik. Mən hələ də onun oynadığı obrazlara baxanda nəsə götürürəm. Onun hər hərəkəti, hər sözü, hər baxışı məktəbdir. Yorulmaq bilmədən işləyən bir insan idi..."

ÜÇ ƏSRİN QƏZETİ
# Kaspi İDMAN
29 AVQUST ŞƏNBƏ 2026
www.kaspi.az

Valdas Dambrauskasın komandası "Barselona", "Borussiya" (Dortmund), "Napoli" və "Slaviya"nı (Praqa) Bakıda qəbul edəcək, "Arsenal", "Mançester Yunayted", "Vilyarreal" və "Vikinq"lə isə səfərdə qarşılaşacaq. Səkkiz komandadan altısının "Böyük beşlik" təmsilçiləri olması püşkün necə ağır olduğunu anlamaq üçün kifayətdir.

# "SABAH" "BARSELONA"NI BAKIYA GƏTİRİR

SABAH 5:2 HAPOEL




Azərbaycan 10 il sonra yenidən avrokubokların əsas mərhələsində iki klubla təmsil olunmağa çox yaxın olsa da, yenə alınmadı. Son illər bu missiyanı təkbaşına icra edən "Qarabağ" bu dəfə tapşırığın öhdəsindən gələ bilmədi. Ağdam klubunu Avropa səhnəsində "Sabah" əvəzləyəcək. "Futuristlər" ilk cəhdindəcə Çempionlar Liqasının (ÇL) əsas mərhələsinə vəsiqə qazanmağı bacardı. "Qarabağ" isə heyətdəki böyük dəyişikliklər və çoxsaylı itkilər fonunda Avropa Liqasında başlayıb Konfrans Liqasında (KL) davam etdirdiyi mübarizəni pley-off mərhələsində dayandırdı.

**"BOYUNDAN YUXARI TULLANANLAR"**

"Sabah"ın ilk mərhələdə TNS-i mübarizədən kənarlaşdırması normal qarşılanmışdı. Elə ikinci raundda KuPS (Finlandiya) ilə hər iki qarşılaşmada qələbə qazanmaq və ən azı KL-in əsas mərhələsinə vəsiqəni təmin etmək də Azərbaycan çempionu üçün minimum tapşırıq sayılırdı. Lakin 3-cü təsnifat mərhələsində Danimarkanın ən güclüsü "Orhus"u Bakıda darmadağın edərək pley-offa adlamaq artıq komandanın "boyundan yuxarı tullanması" kimi qiymətləndirilirdi. Klubun ilk cəhdindəcə ÇL-in pley-offuna yüksəlməsi özlüyündə böyük uğur idi. Hədəfləri böyük olan "Sabah" kollektivi isə tam başqa xəyallarla yaşayırdı. Pley-offdakı rəqibin İsrail təmsilçisi "Hapoel" (Beer-Şeva) olması dəqiqləşdikdən sonra iştaha daha da artmışdı. Yumşaq desək, bu komanda heç də keçilməz görünmürdü. Litvalı Valdas Dambrauskasın komandası artıq bir neçə dəfə gözləniləndən artığını etmişdi və bu dəfə də tapşırığın öhdəsindən gələməyi bacaracağına inam böyük idi.

## Bakıda dramatik gecə

İlk qarşılaşmada hesabı açmasına baxmayaraq, yekunda "Hapoel"ə 1:2 uduzan "Sabah" göstərmişdi ki, bu rəqibi keçmək tamamilə mümkündür. Bakıdakı cavab oyununda yaşananlar isə sadəcə fantastika idi.

"Sabah" oyunun son dəqiqəsinə 2:2 hesablı heç-heçə ilə daxil olmuşdu. Bu, rəqibi liqa mərhələsinə aparırdı. Lakin "Sabah" ardıcıl hücumlarla rəqibi qapısına sıxışdırmağı bacarmışdı. Komanda bu əziyyətinin bəhrəsini gördü. Həmin mistik an 90+4-cü dəqiqədə yetişdi. "Sabah"ın xilaskarı, meydana bir qədər əvvəl çıxan Tellur Mütəllimov oldu. 2025-ci ildə Azərbaycan Kubokunun "Qarabağ"a qarşı final oyununun son dəqiqəsində fərqlənərək komandaya tarixində ilk titulu qazandıran müdafiəçi bu dəfə də sözünü dedi.

3:2 hesablı qələbə ilə oyunu əlavə vaxta aparan Azərbaycan çempionu psixoloji üstünlüyü də ələ keçirmişdi. Son 30 dəqiqədə meydanda yalnız bir komanda var idi. Çoxsaylı hücumların ikisindən dəqiq yararlanan "Sabah" yekunda 5:2 hesablı qələbə ilə ÇL-in əsas mərhələsinə vəsiqə qazandı. Cəmi doqquz il əvvəl yaranmış klub turnirdəki debüt mövsümündə dörd təsnifat mərhələsini keçərək əsas mərhələyə adlayan ilk komanda kimi tarixə düşdü.

## Nəhənglərə qarşı ağır sınaqlar olacaq

"Sabah"ın növbəti rəqibləri də artıq məlumdur. Düzü, əsas raundun püşkü komandamız üçün bir o qədər də əlverişli olmadı. "Sabah" burada Avropanın bir sıra nəhəng klubları ilə üz-üzə gələcək. Valdas Dambrauskasın komandası "Barselona", "Borussiya" (Dortmund), "Napoli" və "Slaviya"nı (Praqa) Bakıda qəbul edəcək, "Arsenal", "Mançester Yunayted", "Vilyarreal" və "Vikinq"lə isə səfərdə qarşılaşacaq. Səkkiz komandadan altısının "Böyük beşlik" liqaları təmsilçiləri olması püşkün necə ağır olduğunu anlamaq üçün kifayətdir. Amma Bakıya gələcək dünya səviyyəli ulduzları canlı izləmək, onların qarşısında "Sabah"ın mübarizəsini görmək Azərbaycan futbolsevərləri üçün böyük bir fürsətdir.

| | |
|---|---|
| BARCELONA | H |
| ARSENAL | A |
| B. DORTMUND | H |
| MAN UTD | A |
| NAPOLI | H |
| VILLARREAL | A |
| SLAVIA PRAHA | H |
| VIKING | A |
| SABAH | |

## "Qarabağ" üçün reabilitasiya mövsümü

"Qarabağ" KL pley-offunun ilk oyununda səfərdə Niderland "Tvente"sini 1:0 məğlub etsə də, Bakıda son dəqiqələrdə buraxdığı qolla 1:2 hesabı ilə məğlub olaraq işini çətinə saldı. Əlavə vaxtda daha iki qol buraxan Ağdam klubu 13 il sonra ilk dəfə avrokubokların əsas mərhələsindən kənarda qaldı. Maraqlıdır ki, komanda tarixində ilk dəfə əsas mərhələyə məhz "Tvente"ni keçərək yüksəlmişdi. 2013-cü ildə Niderland klubunu mübarizədən kənarlaşdıran "atlılar" 13 il sonra eyni rəqib qarşısında yolun sonuna gəldi. Amma bu uğursuzluğun səbəblərini yalnız meydandakı 90 və ya 120 dəqiqədə axtarmaq düzgün olmaz. "Qarabağ" yay fasiləsində ciddi dəyişikliklər yaşadı. Komandanın əsas liderlərinin bir çoxu ayrıldı, heyətə xeyli yeni futbolçu cəlb olundu. Kollektivin tam uyğunlaşması üçün isə zaman lazımdır. Üstəlik çoxsaylı zədələr Qurban Qurbanovun heyətlə bağlı işini daha da çətinləşdirdi. Əlbəttə, avrokuboklardan kənarda qalmaq "Qarabağ" üçün yaxşı xəbər deyil.

Ancaq bəzən geriyə addım daha güclü qayıtmaq üçün fürsətə çevrilə bilər. Bu mövsüm Ağdam klubu üçün məhz belə bir reabilitasiya və toparlanma dövrü ola bilər. "Qarabağ" bu mövsüm özünü yenidən qurmalı və daha güclü qayıtmalıdır.


Qurban Qurbanov